**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycan Respublikasının tədiyyə balansı: formalaşması xüsusiyyətləri və tənzimlənməsi problemləri”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Məmmədzadə Nahid Xaliq oğlu**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**Dos. Əhmədov Fariz Saleh oğlu**

**________________________**

**“___” __________ 2019-cu il**

**“Azərbaycan Respublikasının tədiyyə balansı: formalaşması xüsusiyyətləri və tənzimlənməsi problemləri”**

**Mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060401 Dünya İqtisadiyyatı**

**İxtisaslaşma: Beynəlxalq İqtisadi Münasibətlər**

**Qrup: 800**


**Magistrant** — **Elmi Rəhbər**

**Məmmədzadə Nahid, Xaliq** — **i.e.d., prof. Həsənov Rasim Tapdıq**

________________________ ________________________

**Proqram Rəhbəri** — **Kafedra Müdiri**

**i.ü.f.d.,b.m. Nəcəfova Kəmalə Akif** — **i.e.d.,prof.Kəlbiyev Yaşar Atakişi**

________________________ ________________________


**BAKI – 2019**

# Elm andı

Mən, Məmmədzadə Nahid Xaliq oğlu and içirəm ki, “Azərbaycan Respublikasının tədiyyə balansı: formalaşması xüsusiyyətləri və tənzimlənməsi problemləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**"Balance of Payments of the Republic of Azerbaijan: Formation characteristics and regulation problems"**

**Abstract**

**Relevance of the research: The balance of payments covers generalized figures reflecting the countries' relations with the outside world. Regulation of the balance of payments is one of the most important tasks facing the economies of countries. The balance of the balance should be balanced and the deficits should be eliminated.**

**Purpose and Objectives of the research: All aspects of the balance of payments should be examined, problems should be investigated and solutions should be offered. Balance of payment is one of the most important indicators of the country's economy. Foreign investors are also first examining the country's balance of payments for information on the country's economy. And these indicators shape the country's economy.**

**Research methods used: In dissertational research, analytical, scientific-abstraction, induction and deduction, statistical analysis, grouping and synthesis methods were used. Collecting, grouping, analyzing, generating and summarizing materials using various research methods.**

**İnformation base of research: The information base of the dissertation work is compiled by Statistical Committee of the Republic of Azerbaijan and the Central Bank of the Republic of Azerbaijan.**

**Limitation of research: The Central Bank of the Republic of Azerbaijan has used reports in the research. During the research, there were some difficulties as the balance sheet report was presented in less detail than in other countries.**

**The result of research: The economic reforms carried out by the state and their results have been investigated and new proposals have been made for the following years. Prospects for the development of the non-oil sector have been studied and potential areas for different areas have been identified. As a result, proposals that can be implemented by our state in the present and following years have been prepared and put forward at the end of the research work.**

**Scientific-practical significance of the results: The main focus of my research is the changes in the balance of payments of Azerbaijan over the past 5 years, the decline and the elimination of these losses. The study analyzed years and made suggestions for the elimination of the problems.**

**Keywords: balance of payment, economic reforms, foreign investment**

# MÜNDƏRİCAT

**GİRİŞ**……………………………………………………………………………………………6

**I fəsil. AZƏRBAYCAN RESPUBLİKASI TƏDİYYƏ BALANSININ FORMALAŞMASI İSTİQAMƏTLƏRİ** ......................................................................................................9

1.1 İqtisadiyyatın dövlət tənzimləməsi. Tədiyyə balansı makroiqtisadi alət kimi.......................................................................................................................9

1.2 Tədiyyə balansının tədqiq olunması və öyrənilməsinə dair nəzəri konsepsiya və yanaşmalar..........................................................................................................14

1.3. Tarazlı balansın formalaşması xüsusiyyətləri........................................................20

**II Fəsil**. Azərbaycan Respublikası tədiyyə balansı və tənzimlənəsi problemləri...........................................................................................................23

2.1. Azərbaycanın Tədiyyə balansının strukturu və onun təhlili....................................24

2.2. Azərbaycanın tədiyyə balansının qiymətləndirilməsi.............................................31

**III Fəsil. AZƏRBAYCANIN TƏDİYYƏ BALANSI TƏNZİMLƏNMƏSİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ**...................................................................................................38

3.1. Tədiyyə balansının tənzimlənməsində qeyri-neft sektorunun ixrac potensialından istifadə..38

3.2. Tədiyyə balansının tənzimlənməsində dövlətin özəl sektorla əlaqəsinin rolu. İnformasiya öhdəliyi……………………………………………………………………………….41

3.3. Dövlətin qəbul etdiyi iqtisadi inkişaf proqramlarının tədiyyə balansının tənzimlənməsində rolu...................................................................................................................45

**NƏTİCƏ VƏ TƏKLİFLƏR..........................Ошибка! Закладка не определена.**49

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**.......................................................................55

**CƏDVƏLLƏRİN SİYAHISI**.....................................................................................61

**ŞƏKİLLƏRİN SİYAHISI**...................................................................................... 572

**QRAFİKLƏRİN SİYAHISI**.......................................................................................63

# GİRİŞ

Məlum olduğu kimi, dövlətlərin makroiqtisadi siyasətlərinin son məqsədləri iqtisadi inkişafın, tam məşğulluğun, qiymətlərin sabitliyinin və tədiyyə balansının tarazlığının təmin olunmasından ibarətdir. Göründüyü kimi tədiyyə balansının tənzimlənməsi hər bir dövlətin qarşısında duran mühüm makroiqtisadi vəzifədir. Tədiyyə balansı ölkələrin ödəmə qabiliyyətini xarakterizə edən göstərici rolunu oynamaqla, makroiqtisadi tənzimləmə vasitəsidir. Ümumilikdə makroiqtisadi vəziyyətin qiymətləndirilməsi, ölkədən və ölkəyə kapital, əmtəə, valyuta, xidmət axınlarının izlənməsi baxımından son dərəcə mühüm iqtisadi vasitədir. Bunun vasitəsilə ölkələr makroiqtisadi təsir metodlarını təyin edərək, makroiqtisadi tarazlığın təmin olunmasına çalışırlar.

Xüsusən son 5 ildə dünyada baş verən proseslər, neftin qiymətinin aşağı düşməsi ölkəmizdə də "tədiyyə balansı tarazlığı" ifadəsinin çoxlu mənbələrdə hallanmasına və rüblük olaraq tədiyyə balansının qiymətləndirilərək, həlli yollarının verilməsini aktual məsələlərdən birinə çevirmişdir.

2014-cü ildən başlayan dünya neft bazarındakı dəyişikliklər neft qiymətlərinin aşağı düşməsi ilə nəticələndi. Və neft-qaz sektorunun hökmranlıq etdiyi ölkə iqtisadiyyatımız yeni bir dövrə keçmiş oldu. Ölkə gəlirlərinin əsasını təşkil edən neft-qaz sektorundakı geriləmə iqtisadiyyatın bütün sahələrində öz təsirini qoymağa başladı. Bu isə tədiyyə balansı strukturunda öz əksini tapmağa başladı. Tədiyyə balansı strukturunda qeyri-neft sektorunda olan kəsiri bağlayan və balansın profisitdə olmasını təmin edən neft-qaz sektorunda geriləmə nəticəsində tədiyyə balansı kəsiri ilə qarşılaşmağa başladıq. Bunun da nəticə olaraq ölkə iqtisadiyyatımızın önündə mühüm bir vəzifə yarandı . Tədiyyə balansının tənzimlənməsi problemlərini araşdırmaq, həlli yolları təklif etmək və tədiyyə balansı tarazlığının təmin olunması bütün iqtisadçıların önündə dayanan əsas tapşırıq olmağa başladı.

**Mövzunun aktuallığı:** 2014-cü ilin sonlarından etibarən başlayan neft sektorunda geriləmələr və 2015-ci il tədiyyə balansı defisitimiz mövzunun iqtisadiyyatımız üçün ən aktual mövzu olduğunu qarşıya qoyur. Buna görə də

araşdırmaların surətlənməsi və lazımı addımların atılması hazırda iqtisadiyyatımız önümdə dayanan əsas vəzifədir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Qeyd olunan əsas problem devalivasiyadan sonra ölkə iqtisadiyyatının qarşısında dayanan əsas problem, tədiyyə balansının tənzimlənməsi problemidir. Tədqiqat işində son 3 il üzrə atılan addımlar analiz olunmuş, araşdırmalar aparılmış və təkliflər verilmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri:** Azərbaycan Respublikasında tədiyyə balansının formalaşmasını rəhbər tutaraq, möcud prolemləri əks etdirərərək, makroiqtisadi tarazlığın əldə olunması üçün tənzimlənmə yollarının müəyyənləşdirilməsidir.

**Tədqiqatın obyekti və predmeti** Azərbaycan Respublikasında makroiqtisadi və tədiyyə balansının formalaşması prosesləri, predmetini isə tədiyyə balansının formalaşması xüsusiyyətləri, Mərkəzi Bankın rüblük və illik hesabatları təşkil edir.

**Tədqiqat metodları:** Dissertasiya işində elmi-abstraksiya, analitik, induksiya və fərdiləşdirmədən istifadə olunmuşdur. Statistik analiz, qruplaşdırma və sintez metodları da tətbiq olunaraq, nəticələr əldə edilmişdir. Fərqli istiqamətlərdə müxtəlif araşdırma metodlarından istifadə olunaraq materialları toplanlmış, və yekunda isə qruplaşdırma, təhlil etmə və ümumiləşdirmədən istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Azərbaycan Respublikası Statistika Komitəsi və Azərbaycan Respublikası Mərkəzi Bankının statistik məlumatları təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat işində əsas məhdudiyyətimiz qurumlarımızın bölüşdüyü məlumatların natamam olması və tədiyyə balansı hesabatlarının dünya praktikasına baxsaq, daha az informasiya ilə bölüşülməsidir.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:** Azərbaycan Respublikası tədiyyə balansında baş verən dəyişiklikləri analiz etmək, tarazlı vəziyyətə nail olunması üçün atılan son addımları araşdırmaq və bu stabilliyin qorunması üçün dövlətin öz iqtisadi platformasında atmalı olduğu addımları müəyyən edərək, yeni təkliflər irəli sürməkdir. Praktiki olaraq, irəli sürüləcək təkliflər makroiqtisadi tarazlığın əldə olunması üçün mühüm əhəmiyyət kəsb edə bilər.

**Dissertasiya işinin strukturu və həcmi:** Dissertasiya işi görüş, üç fəsil, nəticə və təkliflərdən, istifadə olunan ədəbiyyat siyahısından ibarətdir.

Girişdə mövzunun aktuallığı əsaslandırılır. Birinci fəsildə tədiyyə balansının makroiqtisadi rolu və formalaşması mənbələri qeyd olunaraq, tənzimləmə metodologiyası izah olunur. İkinci fəsil Azərbaycanın tədiyyə balansının son 3 ildəki əsas göstəriciləri təhlil olunaraq, mövcud ola problemlər analiz olunub. Üçüncü fəsildə isə mövzuya yekun olaraq, qeyri-neft sektorunun inkişaf perspektivləri araşdırılaraq, tədiyyə balansına təsiri əhatə olunub. Dövlətin həyata keçirdiyi sosial-iqtisadi inkişaf proqramları çəçivəsində görülən işlər də əsas gətirilərək, atılmalı olan addımıar irəli sürülmüşdür. Nəticə və təklifdə isə araşdırma ümumiləşdirilərək yekun vurulur və təkliflər öz əksini tapır.

# I FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASI TƏDİYYƏ BALANSININ FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

## 1.1 İqtisadiyyatın Dövlət Tənzimlənməsi. Tədiyyə Balansı Makroiqtisadi Alət Kimi

Tədiyyə balansı ölkələrin xarici dünya ilə münasibətlərini əks etdirən ümumiləşdirilmiş göstəriciləri əks etdirir. Tarixə nəzər saldıqca, tədiyyə balansı orta əsrlərdə meydana gəlmişdir. O zamanlarda tədiyyə balansı ticarət balansı formasında tətbiq olunurdu. Termin kimi isə, ingilis iqtisadçısı Con Stüart-Mill tərəfindən elmə daxil olmuşdur. Həmin zamanlarda balans əsas etibarilə fiskal funksiya daşıyırdı. Müasir formada isə görə bilirik ki, tədiyyə balansı makroiqtisadi siyasət elmlərinin hazırlanması zamanı mühüm rolda çıxış edir.

1. Tədiyə balansı ölkələrim beynəlxalq iqtisadi münasibətlərinin mədaxil və məxaric şəklində valyuta ilə ifadə olunmuş dəyəridir.

2. Tədiyyə balansı ölkələrin rezident və qeyri-rezidentlərlə qalan dünya arasındakı iqtisadi münasibətlərin maliyyə yekunlarını özündə birləşdirən matris şəkilli cədvəldir.

2-ci hissədə qeyd olunanlara baxdıqda:

- Rezidentlər – ölkədə 6 aydan artıq müddətdə yaşayan şəxslər.
- Qeyri-rezidentlər - ölkədə 6 aydan az müddətdə yaşayan şəxslər.

Beynəlxalq valyuta fonunun verdiyi izaha görə, tədiyyə balansı müəyyən dövrdə hazırlanan statistik hesabatdır və aşağıdakıları əks etdirir.

- hər hansı ölkənin digər ölkələrlə apardığı əmtəə, xidmət və gəlir əməliyyatları
- ölkəyə məxsus monetar qızıl, xüsusi iqtibas hüququ, həmçinin qalan dünya ölkələri ilə qarşılıqlı münasibətdə olan maliyyə tələbləri və öhdəliklərində mülkiyyət hüququnun dəyişilməsi
- qarşılıqlı formada baş verməyən əməliyyatların və dəyişikliklərin mühasibat nöqteyi tərəfdən balanslaşdırmaq üçün lazım olan birtərəfli köçürmələr

Tədiyyə balansının tərtib olunmasında 2 əsas prinsip dayanır.

1) müəyyən dövrdə (aylıq, rüblük, illik) ölkənin xarici iqtisadi münasibətlərini əks etdirən əməliyyatların əhatə edilməsi;

2) əməliyyatlarda ikitərəfli mühasibat yazılışının nəticələrinə uyğun olaraq bir neçə maddələr üzrə disbalansın digər maddələrlə tarazlaşdırılması.

Tədiyyə balanasının strukturuna nəzər salaq:

1. Cari əməliyyatlar üzrə balans - cari əməliyyatlar balansı
   - Əmtəələr, xidmətlər
   - İnvestisiya gəlirləri, fərdi birtərəfli köçürmələr

Digər xidmətlər və gəlirlər

2. Birbaşa investisiyalar və digər uzunmüddətli kapital
   - Birbaşa investisiyalar - Portfel investisiyala

Digər uzunmüddətli kapital

3. Digər qısamüddətli kapital

4. Səhvlər və ötürmələr

1 + 2 + 3 + 4 – kapitalın hərəkəti balansı

5. Kompensasiyaedici maddələr

6. Fövqəladə maliyyəşdirmə mənbələri

7. Xarici dövlət orqanlarında mövcud valyuta və qızıl ehtiyatlarının tərkibindəki öhdəliklər

Yekun: 1+2+3+4+5+6+7

8. Ehtiyatlarda olan yekun dəyişiklik

Qızıl

Beynəlxalq Valyuta Fondu

Xüsusi İqtibas Hüquqları

Yekun: 1+2+3+4+5+6+7+8

Struktura nəzər qalsaq 4 hissəni qruplaşdıra bilərik.

1. Cari əməliyyatlar üzrə balans

2. Maliyyənin və Kapitalın hərəkəti üzrə balansı

3.Balanslaşdırıcı maddələr üzrə balans

4. Ehtiyat aktivlərin dəyişməsi üzrə balans

Bütün bunların nəticəsində isə tədiyyə balansı üzrə saldo formalaşır ki, o da ölkənin valyuta-qızıl ehtiyatlarının və digər ehtiyatlarının dəyişilməsi hesabına formalaşır və maliyyələşdirilir. Yəni nəticə olaraq əgər saldo mənfidirsə ödənilir, solda müsbətdirsə, bölünür.

Balansın hər bir hissəsində müxtəlif məlumatların müsbət işarə ilə kreditdə, mənfi işarə ilə isə debetdə olduğunu görə bilərik.

Mal və xidmətlərin ixracı, əldə edilmiş transfer və gəlirlər, aktivlərdə baş verən azalma və öhdəliklərdə olan (passivlərdə) artma kredit yazılışı formasında balansda əks olunur.

Mal və xidmətlərin idxalının, ödənilmiş gəlir və köçürülmüş transfertlərin, aktivlərdə baş verən artma və öhdəliklərdə olan azalma isə debet yazılışı formasında balansa daxil olunur.

Tədiyyə balansı tarazlıqda saxlanılır lakin müxtəlif amillər səbəbindən, hansı ki, ölkədə qiymətlərin səviyyəsinin dəyişməsi, idxal və ixracda baş verən dəyişikliklər, istehsalın səviyyəsinin dəyişməsi kimi amillər tədiyyə balansında olan balansın pozulmasına gətirib çıxara bilir. Bu səbəbdən də, tədiyyə balansında "səhvlər və buraxılışlar" bölməsi yaradılmışdır ki, bütün bu qeyd olunanlar orada əks olunur. Tədiyyə balansının hesabatları illik olaraq hazırlanır. Lakin praktikada bu hesabatların rüblük olaraq da hazırlanıb təqdim olunduğunu görə bilirik. Dünya praktikasında ABŞ-da hesabatların 3 aylıq müddətlə rüblük hazırlandığını görə bilirik. O cümlədən də ölkəmizdə dünya təcrübəsindən faydalanaraq, hesabatların rüblük olaraq təqdim olunduğunu görə bilirik. Həmçinin tədiyyə balansı ölkənin fiziki şəxsləri, firma və müəssisələr, digər ölkələrim orqanları, firma və müəssisələri arasında baş verən əməliyyatların nəticələrini əks etdirən sistemli yazılış formasıdır. Burada əsas məsələ isə, xarici vətəndaş olmaq yox, davamlı olaraq fəaliyyət göstərməkdir. Əgər bu fəaliyyətlər davamlı xarakter daşıyırsa, onlarla digər ölkələr arasındakı münasibətlər tədiyyə balansında öz əmdimi tapacaq. Ümumiləşdirdikdə isə, tədiyyə balansı tarazlıqda olmalıdır və debet hissə kredit hissəyə bərabər olmalıdır. (R.T.Həsənov, 2009)

Tədiyyə balansının strukturunu ayrı-ayrılıqda təhlilinə başlayaq.

Tədiyyə balansının təhlili zamanı ilkin olaraq cari hesablar üzrə balans, yəni cari əməliyyatlar balansına nəzər yetirilir.

Burada ölkənin idxal və ixrac əməliyyatları, yəni xarici ticarəti, əldə olunmuş və ya göstərilmiş xidmətlər, əldə olunmuş və göstərilmiş ilkin xidmətlər və təkrar gəlirlər daxildir. ödənilmiş ilkin gəlirlər dedikdə əmək haqqı, renta, divident, faiz, və bu tip ödənişlər nəzərdə tutulur. Təkrar gəlirlərə isə pul baratları, humanitar yardımlar, qrantlar və s. nəzərdə tutulur.

Nəticə olaraq cari əməliyyatlar balansının 3 hissədən ibadət olduğunu görə bilirik. I hissədə əmtəə və malların idxalı və ixracı daxildir. II hissəyə xidmətlərin ixracı və idxalı daxildir ki, bura Beynəlxalq sığorta və bank xidmətləri, xarici turizm, konsultasiya xidmətləri, lizinq, komisyon ödənişləri, xarici investorların faiz və mənfəət gəlirləri daxildir. III hissəyə isə Cari transferlər daxildir ki, burada da dövlətlərin bir birilərinə göndərdikləri hədiyyələr, pul yaxud əmtəə şəklindəki yardımlar daxil edilir.

"Özəl köçürmələr" hansı ki, bir istiqamətdə aparılan köçürmələr və "Dövlət birtərəfli köçürmələri" üzrə maddələr transfertlər adı ilə birləşən əməliyyatları əhatə edir.

Kapital hərəkəti balansı aşağıdakıları əhatə edir:

Bu hesabda əsas etibari ilə ölkənin qalan dünya ilə istehsal edilməmiş qeyri-maliyyə aktivləri üzrə əməliyyatlarını əks etdirir. Məsələn idmançılarım transferləri, avadanlıq formasında edilən yardımlar kimi kapital yönümlü digər transferlər.

Maliyyə hesabı ölkənin xalis xarici maliyyə öhdəliklərini və xalis xarici maliyyə aktivlərini özündə birləşdirir. Müxtəlif formada sərmayə axınları, yaranmış maliyyə öhədlikləri və tələbləri aiddir. Buradakı əməliyyatları funksiyalarına görə aşağıdakı kimi qruplaşdıra bilərik.

Birbaşa investisiyalar hər hansı ölkənin sərmayedarı tərəfindən digər hər hansısa bir ölkədə yerləşmiş müəssisənin nəzarətində və idarə olunmasında keçərli səsə malik olur və idarə olunmasında birbaşa olaraq hüquqi səsə malik olur.

Səhmlərin 10 və yaxud daha çox faizi xarici səhmdara malik olduqda bu birbaşa investisiya sayılır.

Portfel investisiyaları qiymətli kağızlara qoyulan investisiyalardır və birbaşa investisiyalardan fərqi ondadır ki, burada səhmdarın uzunmüddətli marağı olmur.

Digər investisiyalar qeyri rezidentlərə olan öhdəliklərə əsaslanır. Qeyri-kommersiya borcları, valyuta və depozitlər, ticarət müqavilə və kreditləri buraya daxil edilir.

Maliyyə törəmələri zəmanətlər və seçim tipli müqavilələri, və gələcək tipli müqavilələri əhatə edir. Gələcək tipli müqavilələrə gələcək pul köçürmələri, xarici mübadilə müqavilələri və s. daxildir.

Ehtiyat aktivlər balansı - bu maddə cari əməliyyatlar, kapital və və maliyyə hesablarında baş verən əməliyyatların nəticəsi olaraq ölkədəki valyuta ehtiyatlarının artıb-azalmasını göstərir. Misal gətirsək, əgər cari əməliyyatlar balansında kəsr qeydə alınıbsa və bu kəsri xaricdən kredit cəlb eynəklə bağlamaq olmursa, bu zaman Mərkəzi bankın valyuta bazarına müdaxiləsi hesabına bağlanır. Mühasibat yazılışına uyğun olaraq, kredit hissə + işarə ilə aktivlərin azalmasını, debet tərəfi isə, - işarə ilə aktivin artmasını ifadə edir.

Balanslaşdırıcı maddələr Statistik məlumat olaraq, tədiyyə balansının tərəflərində öz əksini tapa bilməyən əməliyyatların nəticəsi kimi bu maddə yaranır. Dünya praktikasına baxsaq, bu maddənin sıfıra bərabər olmasının çətinliyini görə bilərik. Çünki ölkənin artan və daima genişlənib dəyişən iqtisadi fəaliyyətinin nəticəsi olaraq, bir sıra əməliyyatların dəqiq qeydiyyatını aparmaq çətinləşir.

Tədiyyə balansı hesabatları ölkələrdə siyasi və iqtisadi qərarlarım alınmasında mühüm xarakterə malikdir. Və əhatə etdiyi informasiya nöqteyi nəzərdən unikal xarakterə malikdir. Bunları nəzərə alaraq, tədiyyə balansının əhatə etdiyi informasiyanı aşağıdakı kimi qruplaşdıra bilərik:

Ölkələr arasında iqtisadi münasibətlərin nəticələrini sistematik yazılış forması ilə, milli valyutanın, kursların stabilliyini təyin etmək olar.

- Fiksə olunmuş valyuta şəraitində mühüm informasiya bazası rolunu oynayır. Tədiyyə balansının köməyi ilə, valyutanın xaricilərin əllərində toplanmış həcminin

təyin olunması və ona buna görə də, valyutanın fiksə olunmuş kursunun saxlanılmasında, xüsusən də, böhran vəziyyətində qərarlar qəbul etməyə imkan verir.

- Tədiyyə balansı faiz ödəmələri, borclar və əsas borcun toplanması haqqında, ölkənin gələcəkdəki ödəmələri, əldə edə biləcəyi valyutanın həcmi və bu kimi məlumatların toplanmasında mühüm xarakter daşıyır. Belə informasiyalar vasitəsilə ölkədəki makroiqtisadi vəziyyət barədə fikir yürüdülərək qərarlar alına və proqnozlar verilər bilir.

### 1.2 Tədiyyə balansının tədqiq olunması və öyrənilməsinə dair nəzəri konsepsiyalar və yanaşmalar

Tədiyyə balansında olan qalığa dair müxtəlif fikirlər vardır. Əksər alimlər azlığı tədiyyə balansının etibarlılıq dərəcəsi kimi hesab edirlər. Başqa cür desək, qalıq nə qədər çox olarsa, balans tərtib olunan vaxt o qədər ciddi qüsurlara yol verildiyini görmək olar. Bu aparılan araşdırmalarda həqiqətlər mövcud olsa belə, qayda olaraq irəli sürülmür. Yəni bəzi vaxtlarda balans tərtib olunan vaxt olunan xətalar bir birini konpernasiya edərək, yekun əldə olunan azlığı görsətmir. Nəticələndirsək, balansda mövcud olan qalığın çox olması onun etibarlılığını bir qədər azaldır. Sıfıra yaxın olması və ya sıfıra bərabər olması isə, balans tərtib olunan zaman böyük səhvlərə yol verildiyi anlamına gəlmir.

Təcrübədən görə bilərik ki, mövcud olan qalıqlar beynəlxaq investisiyaları əhatə edən məlumatlardakı xətalardan irəli gəlir. Təlimatları qeydə alaraq, kredit üzrə qeyd olunan əməliyyatlar göstərilir:

Real resursların maddələri üzrə ixrac, dövlətin mövcud olan xarici öhdəliklərinin yüksəlməsinə yol açan əməliyyatlar, mövcud dövlətin rezidentlərinə məxsus xarici aktivlərin enməsinə yol açan əməliyyatlar.

Debet tərəfində isə, əslinə olaraq, real resurs maddələri üzrə daxilolmalar, maliyyə resursları baxımından dövlətin rezidentlərə məxsus olan aktivlərin yüksəlməsinə və yaxud dövlətin xarici öhdəliklərinin aşağı salınmasına gətirin

çıxaran əməliyyatları aid edə bilərik. Və uyğun olaraq qeyd edək ki, müsbət rəqəm artımı, mənfi rəqəm isə enməni müəyyənləşdirir.

Digər bir məsələ isə, tədiyyə balansının tərtibi zamanı, əməliyyatların dəyər ifadəsinin həmin anda mövcud olan faktiki bazar qiymətlərinə uyğun olaraq aparılmasıdır. Tədiyyə balansında aparılan əməliyyatlar xarakterinə uyğun olaraq, mübadilə və transferlərə bölünürlər. Geniş formada baxsaq, bərabərdəyərli olan mübadilə əsasınd aparılan əməliyyatlar mübadiləyə, qeyri-bərabər dəyərə malik olan mübadilə əməliyyatları isə transferlərə daxildir. Güzəştli qaydada aparılan, o güllədən birtərəfli transferlər də bu kimi sövdələşmələrdən hesab olunur.

Məlumdur ki, rezidentlərdən qeyri rezidentə doğru aparılan bütün dəyərlər balansda öz əmdimi tapmalıdır. İndi baxaq ki, əməliyyat baş vermədiyi təqdirdə tədiyyə balansıdan yazılış aparmaq mümkündürmü? Təcrübəyə baxsaq görərik ki, hüquqi şəxsin rezidentliyi dəyişdiyi halda, iqtisadi subyektin sahib olduğu məcmu aktivlər iqtisadi dəyərlərin beynəlxalq dövriyyəsinə aid olma səbəbindən balansda əks olunmalıdır. Bu vaxt, subyektin malik olduğu daşınan əmlakı ticarətdə, daşınmaz əmlak isə müvafiq olaraq cari və kapital köçürmələrində kompensasiya yazılışı kimi qeydiyyata düşməsi lazımdır.

Daha öncə də qeyd etdiyimiz kimi, Beynəlxalq valyuta fondunun tədiyyə balansı üzrə təlimatının 1993-cü ildə olan 5-ci nəşrinə uyğun olaraq, balansın strukturu 2 böyük hesabdan ibarətdir. Bunlar Cari əməliyyatlar hesabı və kapital və maliyyənin hərəkəti hesablarıdır. Cari əməliyyatlar balansında əmtəə, xidmətlər üzrə ticarət, gəlirlər və cari transferlər kimi adlandırılan 4 hesabdan ibarətdir. Bu hesabda əsas paya malik olan hesab bir qayda olaraq xarici ticarət qəbul olunur. Buraya aşağıdakıları qeyd edə bilərik:

-Məhsul ixrac və idxalı

-Məhsulların təmiri

-Nəqliyyat təşkilatlarının limanda qəbul etdiyi mal və qeyri-monetar qızıl.

Malların idxal və ixracı dedikdə, mülkiyyət hüququ qeyri rezidentlərdən rezidentlərə, eyni zamanda da rezidentlərdən də qeyri rezidentlərə keçən bütün növdə olan əməliyyatlar hesab olunur. Emal üçün nəzərə alınan məhsul dedikdə

isə, bu məqsədlə ölkə xaricinə göndərilən və yaxud da daxil olan mallar nəzərdə tutulur. Bu proses müqaviləyə uyğun olaraq, müəyyən ödəniş qarşılığında 2 növ əməliyyatı özündə birləşdirir. Məhsulların ixracı və onların yenidən emal edilib yenidən idxalı. Və buna uyğun olaraq, o cümlədən də, qeyri rezidentlərin dövlətin daxilində malların emalı onun idxal olunması və yenidən ixracı nəzərdə tutulur.

Tədiyyə balansında malların təmiri qeyri rezidentlər tərəfdən aparılan rezidentlərin daşınan avadanlıqlarının təmiri nəzərdə tutulur. Emalda nəzərdə tutulan mallardan fərqli, burada malların təmirdən sonra və ya əvvəlki dəyəri yox, təmirin öz dəyəri öz əmdimi tapir.

Və qeyd etdiyimiz nəqliyyat təşkilatları limanlarında əldə olunan mallar resident və qeyri-rezident nəqliyyat şirkətləri tərəfdən yerli və xarici limanlarda yaxud da transit yollarda əldə olunan karbohidrogen ehtiyatlar, ehtiyat kisələri, ərzaq və s kimi mallar aid olunur. Köməkçi xidmətlərin həyata keçirilməsi isə burada yox, nəqliyyat xidmətlərində öz əksini tapir.

Qeyri monetar qızıl maddəsi isə pul kredit təşkilatlarda ehtiyat aktivi olmayan istənilən formada qızılın idxal və ixracı aid olunur. Bu da uyğun olaraq, istehsal təyinatlı və yığım vasitəsi olaraq ayrılır.

Qaydalara uyğun qeyd edə bilərik ki, ölkədən keçən transit mallar, əməliyyat lizinqi ilə xaricə satılan və ya alınan əmtəələr, geri qaytarılan ixrac yaxud da idxal malları, neft-qaz quyularının qazılması üçün müvəqqəti gətirilən qazma və istismar platformalar, ixrac və idxal əməliyyatlarını aparan nəqliyyat vasitələri və ya digər qeyri-stasionar dəzgahlar, sərhədi keçəndən sonra istehlakçıya çatmadan məhv olan yaxud da itirilən mallar tədiyyə balansında əks olunmur.

Xarici ticarət hesabatında ixrac və ya idxal olmasından asılı olmadan dəniz daşımalarındakı bütün növ əməliyyatlar İnkoterms-in FOB şərti ilə, quru daşımaları isə franko, ixracatçının sərhədi şərti FCA ilə göstərilir. Malların sərhədə çatması ilə bağlı olan məsrəflər, o gülldədən də yüklənmə xərcləri məhsulun dəyərinə əlavə olur.

Xidmətlər hesabı. Tədiyyə balansında digər önəmli əsas bölmə xidmətlər hesabı hesab olunur. Beynəlxalq Valyuta Fondunun “Beynəlxalq xidmət ticarətə

dair təlimatı”na uyğun olaraq, xidmətlər 11 qrupda birləşir. Bunlar nəqliyyat, tikinti, maliyyə, sığorta, işgüzar görüşlər, intellektual mülkiyyət, lisenziya ödənişləri, digər işgüzar xidmətlər, istirahət və mədəniyyət sferasına daxil olan xidmətlər, digər kateqoriyalara air edilməyən dövlət xidmətləri.

Gəlirlər hesabı. Balansın statistikasında gəlirlər 2 kateqoriyada birləşir. Əmək və investisiyadan əldə edilən gəlirlər. Aktivlərin yenidən qiymətləndirilməsindən müəyyən olunan itkilər və yaxud da uduşlar gəlir olaraq hesablanmır. Bu səbəbdən onlar gəlirə aid edilmir və maliyyə hesabında göstərilir.

Cari köçürmərlər. Xaric ilə hesablaşmalardakı aktivlərin birtərəfli formada hərəkəti və yaxud da qeyri ekvalent mübadilə köçürmələr bölməsində qeyd edilir. Transfertlər cari və kapital olmaqla 2 yerə bölünür. Bunlardan ilki cari əməliyyatlar balansında, digəri isə kapital və maliyyənin hərəkəti balansında qeyd olunur. Kapital transferlərini cari transferlərən fərqləndirən isə, onun kontragentlərinin xaricdə yerləşdiyi aktivlərdə dəyişikliklə nəticələnməsi və qeyri-müntəzəm xarakter daşımasıdır.

Cari transfertlər isə əhalinin gəlir səviyəsindən asılı olmadan, sərəncamqa qalan pul gəlirinə mühüm şəkildə təsir edir. Beləliklə deyə bilərik ki, onun azalması müşahidə olunduqda, son istehlak və yığıma istiqamətlənən gəlirlər də azalır. Mənfi rəqəmlə qeyd olunması isə ehtiyatda olan milli gəlirlə, ümumilli gəlir göstəricilərinin müqayisəsində ikinci tərəfin yüksək olmasını əks etdirir.

Kapital və maliyyə hesabında isə əvvəl də qeyd etdiyimiz kimi, maliyyə resurslarının rezident və qeyri-rezidentləri arasında birtərəfli və ya ikitərəfli hərəkəti özündə birləşdirir. Kapitalla əməliyyatlar hesabı da, istehsaldan kənar qeyri-maliyyə aktivlərinin alınması, satılması və kapital köçürmələri hesabları olmaqla 2 yerə bölünür. Kapital köçürmələri dövlət sektoru və ya digər sektorlar olmaqla qruplaşdırılır. Maliyyə əməliyyatları hesabı isə, portfel investisiyaları, birbaşa investisiyalar və digər investisiyalar olmaqla 3 bölməyə ayrılır. Xarici aktiv formasında qeyri-rezidentə qoyulan tələblər, monetar qızıl, xarici öhdəliklər olaraq isə, qeyri rezidentlərin qarışısına qoyulan kredit borcları təşkil edir.

Nəzəri cəhətdən yanaşdıqda, Tədiyyə balansına dair 3 əsas yanaşmanı qeyd edə bilərik. (Şəkərəliyev Arif.Ş, 2016)

-Elastik yanaşma

-Absorsiya yanaşması

-Monetar yanaşma.

Hər bir yanaşmanı ümumi olaraq nəzərdə keçirək:

Elastik yanaşmada başlıca müddəaları biz Marşal-Lernen konsepsiyasından görə bilərik. Tədiyyə balansının elastik yanaşmasında Marşal-Lernen konsepsiyası ilə birləşməni görə bilərik. Hansı ki, bunlar 2 iqtisadçı tərəfindən müstəqil olaraq hazırlanmışdır. Burada olan əsas məsələ budur ki, balansda tarazlığı əldə etmək üçün, ölkənin valyutasında devalivasiya etmək lazımdır. Devalivasiya vasitəsilə ölkənin valyutasında dəyişiklik edərək, mübadilə dərəcəsinin dəyişilməsinə yönəlmişdir. Yəni bu yanaşma birbaşa olaraq, devalivasiyanın qiymət effekti ilə bağlantılıdır.

Qiymət effektini müəyyən edən fərziyyələr formalaşmışdır ki, onları da aşağıdakı kimi qeyd edə bilərik. (Vəliyev D. Ə, 2007)

1.İxracın təklifi tam elastikdir.

2. Məhsul qiyməti yerli valyuta ilə uyğunlaşmalıdır.

3. Gəlir səviyəsi ölkənin devalivasiyasına uyğunlaşmalıdır.

4. İxrac təklifi böyükdür.

5. İxrac və idxal üçün tələb elastiktik qiyməti tam elastik olmalıdır.

6. Elastikliyin qiyməti isə tam dəyərə əsaslanır.

7. Ölkədə cari əməliyyatlar balansı ticarət balansı ilə bərabər olmalıdır.

Verilən bu müddəalara uyğun olaraq, ölkə öz valyutasında devalivasiya edəndə idxal olan məhsul qiymətləri qaldırılır. İxrac olan məhsul qiymətləri isə, uyğun olaraq, azaldılır.

Nəticələndirsək isə, devalivasiya vasitəsi ilə ixracı artırmaq, idxalı azaltmaq yolu ilə ölkənin tədiyyə balansında olan kəsrin azalmağına yönəlmişdir. Bunun isə uğur qazanması ölkədə idxal üçün daxxili qiymətlətin və ixraca olan xarici qiymətlətin qiymətlərinin elastikliyindən asılıdır.

Absorsiya yanaşması: Bu yanaşma ümumi tarazlıqdır və mahiyyət etibarilə Keynsin milli gəlir münasibətlərinə əsaslandığını qeyd edə bilərik. Bu səbəbdən də, Keyns yanaşması da deyə bilərik. Bu yanaşma daha öncə qeyd etdiyimiz qiymət effektinin əleyhinə olaraq gəlir effektini özündə birləşdirir.

Burada qeyd olunur ki, əgər ölkənin tədiyyə balansında kəsir mövcuddursa, insanlar istehsal etdiyindən daha artıq mənimsəyirlər. İstehlakda daxili xərc və investisiya milli gəlirlə müqayisədə daha çoxdur. Əgər onların balansında artım mövcuddursa, onlar  daha azını mənimsəyəcək. İstehlakda investisiya və xərclər milli gəlirlə müqayisədə daha azdır. Burada isə qeyd edə bilərik ki, tədiyyə balansı milli gəlirlə daxili xərclərin arasında fərq olaraq təyin olunur.

Bu yanaşma isə Alexandr Sidney tərəfdən təkmilləşdirilmişdir.

Pul nəzəriyyəsi: Bu yanaşma ümumi ödəniş balansının izahı kimi qəbul olunur. Burada qeyd olunur ki, tədiyyə balansındakı dəyişikliklər pulan olan təklif və tələb baxımından izah olunur. Buradakı əsas yanaşma isə budur ki, balansdakı tarazlıq pul vəsaitləri vasitəsilə düzəldilə bilər.

Bu  nəzəriyyənin müddəalarını isə aşağıdakı fərziyyələrlə qruplaşdıra bilərik. (Vəliyev D. Ə, 2007)

1. Həm kapital, həm də məhsul bazarında istehlaklarında mükəmməl əvəzetmə vardır.
2. Ölkədə istehsalın səviyyəsi xarici təsir olaraq, ekzogen kimi nəzərdə tutulur.
3. Bütün ölkələrdə əmək haqları qiymətlərinin çevikliyi tam məşğulluq şəraitində istehsalı müəyyən etdiyi təqdirdə tam təmin olunmuş hesab olunur.
4. Güman olunur ki, sabit valyuta mübadiləsinin məzənnəsi ilə valyutanın axını sterilizasiyası qlobal qiymət qanunun hesabına mümkün deyil.
5. Pul təklifi ölkənin xarici valyuta ehtiyatları ilə daxili kreditlərin daxil olduğu pul bazasıdır. Pul tələbində isə aşağıdakı formada, 6-cı bənddə aşağıdakı kimi qeyd edə bilərik.
6. Pul tələbi ehtiyat tələbi hesab olunur və gəlir, sərvət, qiymətlər və faiz dərəcələrinin sabit funksiyaları hesab olunur.

7. Nominal pul balansına olunan tələb nominal gəlirlərin müsbət funksiyalarıdır.

### 1.3 Tarazlı Balansın Formalaşması Xüsusiyyətləri.

Beynəlxalq Valyuta fondunun təsnifatına əsasən, tədiyyə balansı 2 əsas hesabı özündə birləşdirir. Əvvəlki hissələrdə də qeyd etdiyimiz kimi bunlar cari və kapital hesablarından ibarətdir.

Cari əməliyyatlar balansı müsbət olduğu halda bu o anlama gəlir ki, əmtəə və xidmətlər, köçürmə, hədiyyə və s. Ölkələr arasında olan mübadilə üzrə debet kreditdən artıqdır. Başqa cür ifadə etsək, ölkənin xaricdə sərvəti artmışdır. Mənfi olması isə ölkənin borcunu əks etdirir. Bunlardan istifadə edin, tədiyyə balansının rolu ilə milli məhsulun hesablanmasına baxaq. “İnvestor” olan ölkə daxildə olan yığımı artırmağın əvəzinə, özünün milli yığımının müəyyən hissəsini investisiya edir. Başqa cür ifadə etsək, milli yığım aşağıdakı kimi hesablanır. (İ.Kərimli, 2009)

$$S= İ_x + İ_d$$

Burada $İ_x$=S-$İ_d$ buradan milli gəlir ölkənin ümumi xərclərindən {E}, və daxili yığımdan artıq qalan hissəsini əks elətdirir. Ölkənin ümumi xərcləri + məcmu dövlət xərcləri {G} + xarici, milli məhsul və xidmətlərə olan fərdi istehlak xərcləri{C}+ istehsal vəsaitlərinin alınmasına xərclənən fərdi investisiyalardan {$İ_d$} ibarətdir.

Bilirik ki, ölkədədki istehsal olunmuş milli məhsul istifadəsi aşağıdakı kimi ifadə olunur.

Y=C+$İ_d$ +L+X-M   Digər yandan da daxili milli xərcləri   E=C+$İ_d$+G

kimi ifadə edək, o zaman milli məhsul {Y} milli xərclərdən cari olan tədiyyə balansı və ya təmiz ixrac miqdarda fərqlənir. Y-E=X-M

Nəticələndirsək, tədiyyə balansında cari hesabın saldosu eyni anda 4 fərqli formada hesablana bilər. Saldo, məcmu ixrac və məcmu idxalın fərqi, təmiz xarici investisiyalar, (X-M=$İ_x$), milli gəlirlə milli yığımın fərqi X-M=Y-E, ölkə daxilindəki investisiya olmamış yığıma bərabərdir. X-M=S-$İ_d$

Gəldiyimiz nəticələrə görə, ölkədə makroiqtisadi durumun idarə olunmasında bu göstəricilərdən faydalanmaq lazımdır. Və bizə aydındır ki, cari hesabda saldoya nail olunması üçün 2 fərqli məsələnin həll olunması vacibdir. Milli xərcə nisbətdə milli gəlirin artması, Y-E, milli yığımla daxili investisiya fərqi artırılması. $S\text{-}İ_d$

Dünya təcrübəsinə nəzər salsaq, tədiyyə balansında cari hesabda mövcud olan – saldo aşağıda qeyd olunan istiqamətlərdən ödənilir.

-Xarici banklar, beynəlxalq təşkilatlar

-Mərkəzi Bankda saxlanan rəsmi valyuta ehtiyatından istifadə yolu ilə

-Aktivlərin müəyyən hissəsinin xaricə satılması. Yəni birbaşa və portfel investisiyaların ölkə iqtisadiyyatına qoyulması ilə.

Amma bunu da qeyd edə bilərik ki, bu maliyyələşmə davamlı şəkil ala bilməz. Likvid aktivlərin azalması müşahidə olunduqca, ölkəyə kredit vermək istəyənlərin sayı da azalır.

Bütün bunları da qeyd edərək, dövlət tədiyyə balansını mütləq şəkildə tənzimləməlidir.

Və burada dövlətin təsirinin bir neçə istiqaməti mövcuddur: (Prof., i.e.d. Zahid Fərrux Məmmədov)

1. Birbaşa nəzarət.

Bura idxala olunan müdaxilələr, gömrük və digər olan yığımlar, fərdi şəxslərin pul transferlərinə qoyulan qadağalar, əvəzsiz yardımların azaldılması, uzun və qısamüddətli kapital ixracının dayanması, xarici investisiya istiqamətində olan gəlirlərin xaricə köçürülməsi və s. Daxildir. Bu tipli addımlar uzunmüddətli dövrdə effektiv xarakter daşımır və qısamüddətli təcili tədbirlər silsisləsinə aid edilir. Xarici investorların ölkəyə marağının azalması müşahidə olunur və bu da ölkə iqtisadiyyatına öz mənfi təsirini qoyur.

2. Deflyasiya.

Bu tədbirin də tədiyyə balansına kənar effekt kimi təsiri mövcuddur. İnflyasiyanın əleyhinə olan bu addımda hesab olunur ki, istehsal, investisiya və gəlirlərin həcminin aşağı enməsi, idxalın azalması və ixracda olan artımın genişlənməsi üçün ehtiyat gücün artımına gətirib çıxarır. Belə ki, faiz dərəcəsinin

artımı nəticəsində qısamüddətli dövrdə kapital axını güclənir. Lakin digər yandan baxdıqda da görə bilərik ki, deflyasiya ixracı azaldır və idxalı artırır. Çünki deflyasiyada ölkənin milli valyutasının mübadilədə olan məzənnəsi yüksəlir ki, bu da idxalçıların imkanlarını daha da genişləndirir.

1. Mübadilə məzənnəsinin dəyişdirilməsi.

Həyata keçirilən bu istiqamətdə tədbir də tədiyyə balansının tarazlılığının tənzimlənməsinə imkan yaradır. Amma nəzərə almaq lazım ki, devalivasiya-revaslivasiyadan əldə olunan effekt ixrac və idxal elastikliyi, o cümlədən də xarici ticarətin axınlarının ətalətliyi nəticəsində zəifləyir. Buna görə də ilk aylarda ticarət balansı bir qədər də pisləşə bilər. Lakin bir müddət keçdikdən sonra balansla bağlı olan vəziyyətə adətən dəyişir idxal azalır və ixrac artır.

2. Mərkəzi Bankın faiz dərəcəsinin dəyişdirilməsi.

Burada əsas istiqamət kimi məzənnə dəyişikliyi ilə tədiyyə balansının tənzimlənməsinə yönəlibdir. Bu tədbir zamanı daxili kreditlərin, qiymətlərin, pul kütləsinin, məcmu tələbin, bir yandan da beynəlxalq kapitalın hərəkətinin dinamikasına təsir olunur. Misal olaraq deyə bilərik ki, tədiyə balansda passiv saldo müşahidə olunduğu zaman faiz dərəcələrinin artırılması, faiz dərəcələri aşağı müşahidə olunan ölkələrdə kapitalın idxalının stimullaşdırılması və ixracın zəifləməsi ilə nəticələnə bilər. Bu da tədiyy balansının daha da yaxşılaşdırılmasına gətirib çıxara bilir.

3. Valyuta ehtiyatlarının diversifikasiyası.

Bu tədbir zamanı qarşılıqlı əlaqə müşahidə olunmaqdadır. Transmilli şirkətlər, banklar və dövlət valyuta ehtiyatlarının sturukturunun tənzimlənməsi istiqamətində addımlar atırlar. Bu zaman müşahidə olunan əsas məsələ valyuta ehtiyatlarının tərkibinə digər valyutalar daxil etməklə, valyuta müdaxiləsi zamanı, beynəlxalq hesablaşmalarda və valyuta itkilərində müdafiə təmin edilə bilir. Bu tədbir isə daha çox qeyri- sabit olan valyutanın satılıb, yerinə daha sabit olan valyuta alınması ilə reallaşdırılır. Və bu səbəblərdən dolayı da bu kimi hallarda dövlət bu alətdən istifadə edir. Valyutanın sabitliyinin qorunması üçün aparılan tədbir kimi qəbul edərək, diversifikasiya alətini də bu sıraya daxil edirik.

Nəticələndirsək, deyə bilərik ki, dövlət müxtəlif dövrlərdə tədiyyə balansının tənzimlənməsi üçün onun müxtəlif maddələrinə və ya ümumən onun vəziyyətinə müdaxilə edərək balansda tarazlığı əldə etməyə çalışır.

# II Fəsil: AZƏRBAYCAN RESPUBLİKASI TƏDİYYƏ BALANSI VƏ TƏNZİMLƏNMƏSİ PROBLEMLƏRİ.

## 2.1. Azərbaycanın Tədiyyə Balansının Strukturu Və Onun Təhlili.

**Cədvəl 2.1. Azəbaycanın tədiyyə balansı 2018.**

| | |
|---|---|
| Cari əməliyyatlar | 6051.1 |
| Xarici ticarət balansı | 9841.3 |
| Xidmətlər balansı | -2062.0 |
| İlkin gəlirlər balansı | -2459.6 |
| İnvestisiya gəlirlərinin repatriasiyası | -2125.6 |
| Təkrar gəlirlər balansı | 731.4 |
| | |
| Kapital hesabı | 1.4 |
| | |
| Maliyyə Hesabı | -3190.8 |
| Xalis maliyyə aktivləri | 4786.1 |
| Xaricə yönəldilmiş birbaşa investisiyalar | 1760.9 |
| Portfel investisiyaları | 818.7 |
| Törəmə maliyyə alətləri | -3.6 |
| Digər investisiyalar | 2210.1 |
| Xalis maliyyə öhdəlikləri | 1595.3 |
| | |
| Azərbaycana cəlb olunmuş investisiyalar | 4109.1 |
| Cəlb olunmuş investisiyaların repatriasiyası | -3156.2 |
| Portfel investisiyaları | -422.3 |
| Digər investisiyalar | 619.1 |
| | |
| | |
| Balanslaşdırıcı maddələr | 646.4 |
| Tədiyyə balansının ümumi saldosu | 3508.1 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, www.stat.gov.az mənbəyinə əsasən magistrant tərəfindən hazırlanmışdır.

2018 tədiyyə balansını nəzərdən keçirsək, müşahidə olunan profisitin əsas mənbəyi neft qiymətlərinin 33% bahalaşması və cari əməliyyatlar balansında baş verən müsbət dəyişikliklər nəticəsində olduğunu görə bilərik. Cari əməliyyatlar balansındakı 6.1 mld $ profisit yekunda ölkəmizin ehtiyat aktivlərinin 3.5 mld$ artması ilə nəticələnmişdir. Onu da qeyd edək ki, tədiyyə balansının hesablanması

zamanı xam neftin orta qiyməti 69.9$ olaraq hesablanmışdır ki, bu rəqəm ötən il 52.4$ olaraq hesablanmışdır.

Cari əməliyyatlar hesabı:

2018 yekun göstəricilərinə əsasən deyə bilərik ki, cari əməliyyatlar hesabında 6.1 mlrd $ profisit yaranmışdır. Bu göstərici 2017 il ilə müqayisədə 3.6 dəfə daha çoxdur. O cümlədən də qeyd edə bilərik ki, neft-qaz sektorunda profisit 1.7 dəfə artaraq, 12.9mlrd$ olmuşdur ki, buradakı əsas faktorlardan biri də daha öncə qeyd etdiyimiz kimi, neft qiymətlərində olan artımla əlaqələndirilir. Qeyri-neft sektoruna nəzər salsaq, CƏB-də olan kəsir 2017-ci illə müqayisədə 19.6% artmış və 6.8 mlrd$ olmuşdur. Nəticədə isə neft sektorundakı profisit hesabına qeyri-neft sektoru üzrə kəsr tam bağlanmışdır.

CƏB profisitin  başlıca amillərini isə aşağıdakı kimi qruplaşdıraq:

Xarici ticarət balansında yaranan  profisit 1.6 dəfə artmışdır.

- İxrac neft-qaz sektorunda 40%, qeyri-neft sektorunda isə 10% artmışdır.
- Xidmətlər balansında yaranan kəsr 1.6 dəfə azalmış və o cümlədən də tikinti istiqamətində xidmətlər üzrə kəsir 1.9 dəfə (1.1 mlrd$) azalması və digər istiqamətlərdə olan işguzar xidmətlər üzrə isə kəsir 1.5 dəfə(392 mln$) azalmışdır.
- Təkrar gəlirlər balansında isə görə bilirik ki, profisit 3.2 % artmışdır. (https://www.cbar.az/page-43/external-sector-statistics)
- Xarici ticarət balansı
- 2018-ci ildə qeydə alınan xarici ticarətdə olan dövriyyə 31.7 mlrd$ təşkil etmişdir. Qeyri-neft sektorunda mövcud olan 7.6 mlrd$ həcmində olan kəsr neft-qaz sektorunda olan 17.4 mlrd$ həcmindəki profisit vasitəsilə bağlanmışdır. Və nəticədə xarici ticarət balansında ötən illə müqayisədə 1.6 dəfə artım müşahidə olunaraq, 9.8mlrd$ profisit yaranmışdır. Ümumilikdə isə 2018-ci ildəki xarici ticarətin 12 faizi MDB ölkələrinin payına düşür, digər hissə isə digər dövlətlərin payına düşür.
- Əmtəə ixracı 2018-ci ildə 20.8 mlrd$ təşkil etmişdir ki, bu göstərici də ötən illə müqayisədə 37.2 faiz çoxdur. Ümumilikdə xarici dövlətlərə satılan 17.2

mlrd$ neftin 620.5 mln$ neft emalı məhsullarının payına düşmüşdür, qalan hissə, 16.6 mlrd$ isə xam neftin payına düşmüşdür. Qeyri-neft ixracında isə artım müşahidə olunmuşdur ki, bu göstərici ötən illə müqayisədə 9.8 faizlik artımla, 1.6 mlrd$ təşkil etmişdir.

**Qrafik 2.1: 2017 və 2018-ci il tədiyyə balanslarının müqayisəsi**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, www.stat.gov.az mənbəyinə əsasən magistrant tərəfindən hazırlanmışdır.

Əmtəə idxalı. 2018-ci ildə əmtəə idxalı 21.2 faiz artmışdır. 11 mlrd$ təşkil etmişdir. O cümlədən də qeyd edə bilərik ki, istehlak mallarının ümumi idxal dəyəri 4.8 mlrd olmuşdur ki, onun da 1.5 mlrd ərzaq məhsulları olmuşdur. Qeyri neft sektorunda idxalda da artım müşahidə olunmuşdur ki, bu göstərici 19.7 artaraq, 9.2 mlrd olmuşdur. Qeyri neft sektorunun strukturuna nəzər salsaq, aşağıdakı təhlili apara bilərik:

- Minik avtomobilləri 1.9 dəfə

- Kimya məhsulları 40.9 %
- Ağac məmulatları 39.5%
- alkoqollu və alkoqolsuz içkilər 28.8%
- daş və şüşə məmulatlar 22%
- mebel məhsulları 20.7%
- qara metal və ondan hazırlanan məmulatlar 14.2%

Idxalda artım müşahidə olunmuşdur.

- Şəkər 39.6%
- Dəmiryol nəqliyyat vasitələri 21.3%
- Dənli bitkilər isə 11.7% idxalında azalma müşahidə olunmuşdur.

İdxal strukturunda isə görə bilərik ki, xarici investisiyalar ilə gətirilən maşın və avadanlıqlar və malların çəkisi 10.7% təşkil edərək, 1.2 mld$ olaraq qeydə alınmışdır.

Xidmətlər balansı

2018-ci ilin yekununa nəzər salsaq, Azərbaycanın xarici dövlətlərlə əlaqələrində xidmətlərin həcmi 11.5 mlrd$ qeyd alınmışdır. Burada isə pay bölgüsünə baxsaq, 6.8mlrd; qeyri-rezidentlərdən Azərbaycan rezidentlərinə, qalan 4.7 mlrd isə Azərbaycan rezidentlərinin xaridəki ölkə rezidentlərinə verilən xidmətlər olmuşdur. Nəticədə isə bu balansda kəsirdə 1.6 dəfə azalma olmuşdur. Lakin 2018-ci ilin yekununda bu balansda da 2.1 mlrd$ kəsir yaranmışdır.

Neft-qaz sektorundakı kəsir isə yekunda 1.7mlrd$ qeydə alınmışdır ki, burada əsas payı isə tikinti xidmətləri tutmuşdur. İdxalda baş verən artımla əlaqədar olaraq qeyri-neft sektorunda kəsir artmış və 350 mln$ təşkil etmişdir ki, bu göstərici də 2017-ci illə müqayisədə 26.5 faiz artmışdır.

Qarşılıqlı xidmətlər dövriyəsini qeydə aldıqda isə 24% nəqliyyat xidmətləri istiqamətində aparılan əməliyyatları əhatə etmişdir. Ümumi olaraq dəyəri 2.7mlrd$ olan nəqliyyat xidmətlərində 45% qeyri rezidentlərin dövlətimizin nəqliyyat sisyemindən istifadə etməsi ilə əlaqədar ol muşdur. Yerli rezidentlərin qeyri rezidentlərə göstərdikləri nəqliyyat xidmətlərində isə ümumi dəyər 1.2 mlrd$ olmuşdur. Əksinə olaraq qeyri rezidentlərin rezidentlərimizə göstərdikləri

nəqliyyat xidmətlərində isə toplam dəyər 1.5mlrd$ olmuşdur. Ümumilikdə isə qeyd edə bilərik ki, qeyri-neft sektorunda nəqliyyat xidmətlərinin ixracı 42% artmışdır.

Digər göstəricilərə nəzər salaq. Xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə göstərilən xidmət dəyəri 2.3mlrd$ olmuşdur. Və o cümlədən də qeyd edə bilərik ki, bu dəyərin ümumilikdə 87%-i Azərbaycan vətəndaşlarının öz şəxsi səfərləri zamanı göstərilən xidmətləri əhatə etmişdir.

Qarşılıqlı turzim dövriyyəsinə baxdıqda, 13.3% azalma görə bilərik ki, umumi dəyər isə 4.9mlrd$ qeydə alınmışdır. Hesabat dövründə bu xidmətlər üzrə ixrac 2.6mlrd$ təşkil edərək idxalı üstələmişdir. (2.3mlrd$). Və nəticədə 349.8mln$ profisit yaranmışdır.

Tikinti xidmətlərinə baxsaq, hesabat dövrü ərzində qeyri-rezidentlərə ödənilən ümumi dəyər 30% azalmış və 25mln$ olmuşdur. Qeyri neft sektorunda isə qeyri rezidentlərə ödənilən ümumi dəyər işgüzar xidmətlər üzrə 799.4% olmuşdur ki, bu göstəriciyə əsasən də 3.8 faizlik azalma müşahidə edilmişdir.

İlkin gəlirlər balansı:

Neft-qaz sektoruna baxdıqda, bu balansda 2.9mlrd$ kəsir qeydə alınmışdır. Qeyri-neft sektorunda isə profisit müşahidə olunmuş və bu rəqəm 390mln$ olmuşdur. Nəticəyə baxsaq, bu balansdakı kəsir daha da artmış və 40 faizlik artım qeydə alınmışdır. Bu balansda ümumi ödəniş və daxilolmaların dövriyyəsi 5.7mlrd$ təşkil etmişdir ki, burada da qeyd edə bilərik ki, bu dəyərin 71.5 faizi yerli rezidentlər tərəfindən qeyri-rezidentlərə olmuşdur. (4.1mlrd$). Bunun isə əsas hissəsini neft-qaz konsorsiumları istiqamətində xarici investorlara düşən payının gəlirlərinin repatriasiyası (əsas xam neft şəklində), qiymətli kağızların portfelləri istiqamətində ümumi qeyri-rezidentlərə ödənilən faizlər (358.1mln$) və xarici kreditlər üzrə ödənilən faizlər (488.2mln$) təşkil etmişdir. Qeyri neft sektorunda olan profisitin 4.5 dəfə artması isə dövlət sektorunda idarəetmədən əldə edilən gəlirlərin artması ilə əlaqədar olmuşdur.

Təkrar gəlilər balansı: Bu balansda ümumi aparılan əməliyyatların həcminə nəzər salaq.

Bu balans üzrə digər ölkələr ilə aparılan ümumi əməliyyatların dəyəri 1.6mlrd$ həcmində olmuşdur. Daxilolma 1.2mlrd$, ödənişlər isə 436.8mln$ qeydə alınmışdır. Təkrar gəlirlər üzrə daxilolmalara da aşağıda nəzər salaraq, deyə bilərik ki:

Təkrar gəlirlər üzrə ümumi daxilolmalarda xarici ölkələrdən fiziki şəxslərin pul baratları 92.4% təşkil etmişdir. Digər göstəricilərdə isə 6.3% ölkəmizə gətirilən humanitar yardımlar və malların dəyəri, qalan 1.3% isə digər daxilolmalar olaraq qeydə alınmışdır. Ümumilikdə isə ölkəyə gələn pul baratlarının həcmində 5.8 faiz artım olmuş və 1.1mlrd$ olmuşdur, ölkədən çıxarılan baratların ümumi dəyəri isə 5.4 faiz artaraq, 361.4mln$ olmuşdur. Ümumilikdə isə bu istiqamətdə saldoda 718.3mln$ profisit olmuşdur.

Balansı qiymətləndirdiyimiz zaman isə bunu qeyd edə bilərik ki, bu istiqamətdə ümumi əməliyyatlar üzrə saldo müsbət 731.4mln$ olmuşdur ki, bu göstərici üzrə 3.2 faizlik bir artımın olduğunu qeyd edə bilərik.

Maliyyə hesabı:

2018 ci ildəki göstəricilər üzrə ölkəmizin xalis maliyyə aktivlərinin ümumi həcmi 4786.1mln$ artmışdır. Burada portfel investisiyaları 817.7mln$, birbaşa investisiyalar 1760.9mln$, törəmə maliyyə alətləri (-3.6mln$) və digər istiqamətdə olan investisiyalar isə 2210.1mln$ hesabına formalaşıb.

2018-ci ilin yükunu üzrə ümumi xalis maliyyə öhdəliyi 1595.3mln$ olmuşdur ki, burada da xaricdən cəlb edilmiş birbaşa investisiyalar 952.9mln$, portfel investisiyaları -422.3mln$, neft bonusu 450.1mln$, törəmə maliyyə alətləri -4.5mln$, digər istiqamətdə olan investisiyalar isə 619.1mln$ olaraq formaşlaşmışdır. (https://www.cbar.az/page-43/external-sector-statistics)

Tədiyyə balansının 2018-ci il göstəricilərinə əsasən, Aktivlər və Öhdəliklər hesabını cədvəlimizdə əks etdirəcəyik və bu göstəricilər əsasında analizimizi davam etdirəcəyik. Bu cədvəldə biz birbaşa və portfel investisiyaları, digər investisiyalar, kreditlər və qaydalar, neft-qaz sektoru və qeyri-neft sektoru üzrə göstəricilərə baxa biləcəyik. (əlavə 1, cədvəl 2.2)

Daha sonra isə qeyd olunan istiqamətlər üzrə təhlil aparacayıq.

Və aşağıda qeyd olunan istiqamətləri gəlin göstəricilərlə təhlil etməyə başlayaq:

- Birbaşa investisiyalar və portfel investsisiyaları
- Neft qaz sektoru və digər sektorların qiymətləndirilməsi
- Törəmə maliyyə alətləri göstəriciləri
- Neft bonusu
- Avanslar və ticarət kreditləri
- Ssuda və kreditlər
- Nağd valyuta və depozitlər

Ümumi balansa baxdığımız halda isə 4786.1 mln debet olduğunu görə bilirik. Və bu rəqəmə qarşılıq 1595.3 mln$ kredit olduğunu göstəricilərə əsasən deyə bilirik. Və əvvəlcə birbaşa investisiyalarla başlayaq və digər göstəricilər üzrə də davam edək. Bu göstəricilər yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanın 2018-ci il üzrə maliyyə və öhdəliklər balansı əsasında yaradılmışdır. Və birbaşa investisiyalar ilə davam edək:

Birbaşa investisiyalar

Bu formada umimilikdə cəlb olunan xarici sərmayələrin məbləği 4.1mlrd$ olmuşdur. Bu ümumilikdə yatırılan birbaşa investisiyalarda neft-qaz sektoru 76.5 faiz təşkil etmişdir. 2018-ci ildə tədiyyə balansında birbaşa investisiyalar üzrə neft qaz sektoru istiqamətində xalis maliyyə öhdəliklərinin artımı (952mln$) cəlb edilmiş investisiya vasitəsilə (4109.1mln$) kapitalın repatiasiyası (3156mln$) fərqindən formalaşmışdır.

Qeyri neft sektoru üzrə qiymətləndirmələrdə cəlb edilmiş umumi birbaşa investisiyaların dəyəri 967.1mln$ olaraq qeydə alınmışdır.

Kredit və digər investisiyalar:

Ssuda və Kreditlər üzrə xalis maliyə aktivləri isə 145.9mln$ artmışdır. Digər tərəfdən isə xalis maliyyə öhdəlikləri isə 63.2mln$ azalmışdır. Ssuda və kreditlər üzrə mövcud olan xalis maliyyə öhdəliklərinin artmasında dövlət təminatlı kreditlə rol oynamış, Azalmasında əsas rolu isə birbaşa dövlət kreditləri, neft qaz sektorunu kreditləri, firma və digər müəssisələrin kreditləri və o cümlədən də bankların kreditləri hesabına azalmışdır.

Depozit və nağd valyutalar üzrə isə xalis maliyyə aktivləri 863.3mln$ azalmışdır, Xalis maliyyə öhdəlikləri isə 101.7mln$ azalmışdır.

Ehtiyat aktivlər:

2018-ci ildə ölkəmizin ehtiyyat aktivləri 3.5mlrd$ həcmində artmışdır.(Əlavə2, Cədvəl 2.3)

## 2.2 Azərbaycanın Tədiyyə Balansının Qiymətləndirilməsi

Tədiyyə balansı ikili mühasibat yazılışı formasında qurulur. Əməliyyatların hamısı 2 hissədə qeyd olunmaqla, debet və kredit hissələrinə bölünür. Azərbaycanda tədiyyə balansı Mərkəzi Bank tərəfindən rüblük və illik olaraq hazırlanır. MB tərəfindən hazırlanan tədiyyə balansı özündə 4 bölməni birləşdirir.

- Ticarət balansı
- Xidmətlər balansı
- Kapital və kreditlərin dövriyyəsi
- Balanslaşdırıcı maddələr

Digər ölkələrlə müqayisədə deyə bilərik ki, ölkəmizdə bu hesabatlar daha qısa formada hazılanır. Və özündə konkret məlumatları birləşdirir. Beynəlxalq Valyuta fondu hesabatlarından bəllidir ki, əsasən İnkişaf etmiş ölkələrdə hesabatlar dolğun, əhatəli, ayrı-ayrı cədvəllər formasında hər bir hesab növünə uyğun olaraq, həmin ölkənin iqtisadiyyatı haqqında geniş və dolğun bilgilərə sahib olmaq mümkün olur. MB tərəfindən isə BVF-ə təqdim edilən hesabat forması daha konret xarakter almaqla birlikdə digər ölkələrə nisbətdə daha az məlumatları özündə birləşdirir.

Bunun da nəticəsi olaraq xarici subyektlər ölkəmizin iqtisadiyyatı haqqında istədikləri səviyyədə dolğun məlumatlar əldə edə bilmirlə. Əvvəllərdə də qeyd etdiyimiz kimi, tədiyyə balansı iqtisadiyyat haqqında fikir formalaşdırır və ölkə iqtisadiyyatındakı tendensiyaları müşahidə etdirir. Bu səbəbdən də, bu istiqamətdə məlumat çatışmazlığı III fəslimizdəki əsas mövzulardan biri olacaq. Tədiyyə balansı cəhətdən qiymətləndirmədiyimiz halda da yenə də xarici subyektlərin ölkəmizin iqtisadiyyatı haqqında əldə etmək üçün geniş informasiya mənbələri

mövcud deyildir. Xüsusən də xarici investorlar üçün lazım olan informasiyaları təmin edəcək mənbələrin çatışmazlığı ölkəmizin bu istiqamətdəki əsas boşluqlarından biridir.

Daha öncəki fəsillərdə dövlətin istiafadə etdiyi mexanizmlərdən birinin də devalivasiya olduğunu qeyd etmişdik. Azərbaycanda isə bu siyasətin mahiyyətinə 2015-ci ildən ildən varılmağa başlanıldı. Dünyada baş verən 2014-cü ilin sonu və 2015-ci ilin əvvələrində baş verən proseslər neft qiymətlərində kəskin azalmanı şərtləndirmişdi.

**Cədvəl 2.3: Tədiyyə balansına dair nümunə.**

| | | |
|---|---|---|
| Cari əməliyyatlar | Məhsul | |
| | Xidmətlər, o cümlədən investisiyadan əldə olunan gəlir | |
| | Transfert | |
| | | Şəxsi köçürmələr |
| | | Rəsmi birtərəfli köçürmələr |
| Cəmi | | Cari əməliyyatlar hesabı balansı |
| Kapital axını | Uzunmüddətli kapital | |
| | | Birbaşa investisiya |
| | | Portfel investisiyaları |
| | Qısamüddətli kapital | |
| Cəmi | | Kapital hərəkəti balansı |
| Qızıl valyuta ehtiyatları balansı | Qızıl valyuta ehtiyatları | |
| | | Qızıl |
| | | Xarici valyuta ehtiyatları |
| | | Xüsusin iqtibas hüquqları |
| | | Ekyu |
| | | Xarici ölkələrdəki bank aktivləri |
| | | Qızıl valyuta ehtiyatlarının hərəkəti balansı |
| Cəmi balans | | |

**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı (cbar.az) mənbəyinə əsasən magistrant tərəfindən hazırlanmışdır.

Azərbaycanda isə 20 il ərzində neftdən əldə olunan gəlirlərin hesabına davamlı olaraq iqtisadi artıma nail olunurdu. Ölkənin valyutasında sabitlik qorunur, inflyasiya istənilən dərəcədə qorunurdu və dövlət gəlirləri surətlə artmaqda davam edirdi.

Dünya bazarında neft qiymətlərində baş verən kəskin enmə nəticəsində Azərbaycanın döblət büdcəsində böyük kəmiyyətdə ziyan dəyməyə başladı. Gəlirlər azalmağa doğru getməyə başladı. Məsələn dövlətimiz satdığı hər 1 barel neftdən əldə etdiyi gəliri 0.78 Azn hər 1 dollara görə valyutaya əlavə edirdi. Əvvəllər 100+$ olaraq hesablanan neft bareli məsələn 55 dollar hesablanmağa başlanıldıqda, 30+ Azn neftdən gələn gəlir azalmağa başlanıldı.

Beləliklə neftdən gələn gəlirlərin azalması hesabına, birbaşa olaraq dövlət büdcəsinə zərbə dəyməyə başladı və büdcə kəsrimiz çoxalmağa başladı. Məsələn hesab edək ki, neftin 1 bareli 55$ ətrafındadır və bunun nəticəsində də Azərbaycan Respublikası Dövlət Neft Fonduna 45% daxilolma azalır. Və bunu da qeyd edək ki, Azərbaycan Respublikası Mərkəzi bankı və Neft Fondu ehtiyatlarından strateji layihələrin icrasında istifadə olunmalıdır və maksimum bu effektivlik saxlanılmalıdır. Buradan büdcəyə olan transferlərin həcmi az olmalıdır. Bütün bunları nəzərə aldıqda dövlətimiz devalivasiya qərarı vermək məcburiyyətinə qaldı. Devalivasiya qərarlarından əsas səbəblərindən biri də məhz budur. Yəni devalivasiya bu köçürmələri kompensasiya etmiş olur. Və manatın məzənnəsinin əvvəlki dövrlərlə müqayisədə azalması, eyni miqdarda neftin satışından nisbətlə daha çox manat əldə etmək oldu. Və eyni zamanda da xarici valyutaya nisbətdə yerli valyutanın dəyər itirməsi idxal əməliyyatlarda özünü göstərməyə başladı ki, xarici məhsulların qiymətində olan artımlar nəticəsində tələbat azalacaq və eyni zamanda idxalda azalma müşahidə olunacaq və bunların da nəticəsi olaraq, müsbət saldo əldə olunmağa başlanacaq. Devalivasiyanın nəticəsi olaraq, ölkə xarici istehsal olan malların qiymətində artım müşahidə olunmağa başlanıldı ki, bu da öz növbəsində ölkə daxilində istehsal olan malların qiymətlərində ilk baxışla azalma görünəcəkdir. Xaricdə olan ölkələrin vətəndaşları devalivasiya prosesindən öncə olduğu kimi ticarət proseslərini davam etdirəcəklər və bu da eyni şəkildə ixracın artımı ilə nəticələnərək, müsbət saldonun əldə olunmasına təsir göstərəcəkdir.

Eyni zamanda **2017 və 2016-cı** illər üzrə tədiyyə balansına nəzər salsaq, aşağıdakı göstəriciləri müşahidə edə bilərik:

**Cədvəl 2.4: 2016-cı il Azərbaycanın tədiyyə balansı.**

| | |
|---|---|
| Cari əməliyyatlar | -1363.4 |
| Xarici ticarət balansı | 4206.3 |
| Xidmətlər balansı | -3154.5 |
| İlkin gəlirlər balansı | -2472.0 |
| İnvestisiya gəlirlərinin repatriasiyası | -2152.9 |
| Təkrar gəlirlər balansı | 56.8 |
| | |
| Kapital hesabı | -40.1 |
| | |
| Maliyyə Hesabı | -2761.5 |
| Xalis maliyyə aktivləri | 7244.4 |
| Xaricə yönəldilmiş birbaşa investisiyalar | 2573.6 |
| Portfel investisiyaları | -44.3 |
| Törəmə maliyyə alətləri | -0.7 |
| Digər investisiyalar | 4715.8 |
| Xalis maliyyə öhdəlikləri | 4482.9 |
| | |
| Azərbaycana cəlb olunmuş investisiyalar | 7323.6 |
| Cəlb olunmuş investisiyaların repatriasiyası | -2824.0 |
| Portfel investisiyaları | 443.6 |
| Digər investisiyalar | -460.3 |
| | |
| | |
| Balanslaşdırıcı maddələr | 3625.8 |
| Tədiyyə balansının ümumi saldosu | -539.2 |

**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı (cbar.az) mənbəyinə əsasən magistrant tərəfindən hazırlanmışdır.

2016-cı ildə devalivasiyadan sonrakı il olaraq Cari əməliyyatlar balansında 1.4mlrd$ kəsr yaranmışdır. Bu kəsrə təsir edən əsas amillərdən biri isə neftin 1 barelinin orta qiymətinin 42$ olmasıdır. Qeyri neft sektorunda isə bu ildə kəsr 15 faiz azalmışdır. Devalivasiyadan sonrakı illərdə ölkənin qeyri-neft sektorunun inkişafı istiqamətində önəmli addımlar atılmağa başlamışdır ki, neft gəlirləri hesabına bu istiqamətdə inkişafın əldə olunnması bu dövrə qədər daha az fikir verilməsi ilə davam etmişdir. Və bu ildən etibarən biz statistikalara nəzər saldıqda görə bilirik ki, ciddi addımlar atılmış, xüsusən sənaye parklarının yaradılması və inkişafı istiqamətində aparılan işləri misal gətirə bilirik. 2016-cı ildən etibarən neft qiymətlərində dünya bazarıda müşahidə olunan artım tempi ölkəmiz üçün müsbət

istiqamətdə önəmli bir fürsət yaratmışdır ki, keçmişdə buraxılan səhvlərdən nəticə çıxarılsın və dövlət gəlirlərindən doğru istifadə olunaraq ixracın qeyri neft sektorunda stimullaşdırılmasının əldə edilməsi üçün önəmli addımlar atılsın.

2016-cı ildə neft gəlirlərinin istənilən səviyyədə olmaması səbəbindən və dünyada neft qiymətlərinin aşağı templə davam etməsi səbəbindən Cari əməliyyatlar balansında qeyri-neft sektorundakı kəsir neft sektoru tərəfindən bağlana bilməmişdir. Bu kəsirin yalnız 76.3 faizi bağlana bilmişdir ki, bu da öz növbəsində cari əməliyyatlar hesabında kəsirin yaranmasına gətirib çıxarmışdır.

Bu ildə əmtəə ixracı 13.2mlrd$ olmuşdur ki, bunun da əsas hissəsini, 91.2 faizini neft-qaz sektorunun payında düşmüşdür. Xarici ticarət balansındakı saldo isə 4.2mlrd$ olmuşdur. Lakin atılan addımların qısamüddətli təsirini görmək çətin idi. Bu da özünü qeyri-neft ixracında göstərmişdir. Belə ki, qeyri-neft ixracı bu ildə 22.6 faiz də azalmış və 1.2mlrd$ olmuşdur.

Lakin qeyri-neft sektoru idxalında azalma müşahidə olunmuşdur ki, bu göstərici də 2016-cı ildə 9.4 faiz azalmış və 6.7mlrd$ olmuşdur.

2015-ci ildə ümumilikdə qeyri-neft sektoruna cəlb olunan birbaşa investisiyaların həcmi 860.4mln$ olmuşdur ki, 2016-cı ildə bu hissədə atılan addımlar sayəsində irəliləyişlər görə bilirik. 2016-cı ildə qeyri-neft sektoruna cəlb edilən birbaşa investisiyaların həcmi 1706.2mln$ olmuşdur. Bu da 2 dəfədən çox artım olaraq qeydə alınmışdır. (https://www.cbar.az/page-43/external-sector-statistics)

Qeyri neft sektoruna nəzər salsaq görə bilərik ki, bu ildə əvvəlki illə müqayisədə xüsusən də investisiyaların cəlb olunması istiqamətində işlər görülməyə başlanmışdır.

Əlbəttə ki, qeyri-neft sektorunun inkişafına yatırılan investisiyalar uzunmüddətli dövrdə daha çox hiss edilməyə başlanacaq ki, biz bunu növbəti illərin göstəricilərinə əsasən də deyə bilirik.

2017-ci ildə:

-Xarici ticarət balansında profisit 1.5 dəfə artmışdır.

-Neft qaz sektorunda ixrac 14 faiz artmış, idxal isə 1.7 dəfə azalmışdır.

-Qeyri-neft sektorunda xidmətlər balansında kəsir azalmış və turizm xidmətləri üzrə balans 353mln$ müsbət olmuşdur.

-İlkin gəlirlər balansında da kəsir 713mln$ azalmışdır.

Təkrar gəlirlər balansında profisit qeydə alınmışdır və 709mln$ olmuşdur. (https://www.cbar.az/page-43/external-sector-statistics)

Bu ildə qeyri-neft sektorunun ixracında artım müşahidə etmişik ki, bu artım da 27 faiz olaraq, 1.5mlrd$ təşkil etmişdir. 2017-ci ildə tədiyyə balansında profisit qeydə alınmışdır. Ümumi profisit 1.6mlrd$ olmuşdur. Burada əsas faktor kimi neft qiymətlərinin bahalaşmasını qeyd edə bilərik. Neft qiymətlərinin 26 faiz bahalaşması ölkəmizin iqtisadi inkişafında mühüm xarakter almağa başladı.

**Qrafik 2.2: 2016 və 2017-ci il tədiyyə balanslarının müqayisəsi.**




**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı, cbar.az mənbəyinə əsasən magistrant tərəfindən hazırlanmışdır.

Çünki bu istiqamətdə gəlirlərin həcmində artım tempinin davam etməsi, öz növbəsində qeyri-neft sektorunun inkişafına da yatırıla biləcək potensial

investisiyaların həcminin artmasına bərabər kimi qiymətləndirildi. Ötən ilə nisbətən qeyri-neft sektorunun kəsrində də cüzi azalma(1 faiz) müşahidə olunmuşdur ki, bu kəsr 5.7mlrd$ olaraq qeydə alınmışdır. Onu da qeyd edək ki, bu ildə neftin 1 barelinin orta qiyməti 53$ olaraq hesablanmışdır.

Cari əməliyyatlar balansında ötən illə müqayisədə artım tempi davam etmiş və defisitin əksi olaraq bu ildə 1.7mlrd$ profisit qeydə alınmışdır. Və bu ildə neft sektorundakı artım sayəsində qeyri-neft sektorunda olan bütün kəsr bağlanmışdır.

Əmtəə idxalında bu ildə qeyri-neft sektorunda ötən illə müqayisədə 15.3 faiz artım olmuşdur.

**Cədvəl 2.5: Azərbaycanın tədiyyə balansı 2017**

| | |
|---|---|
| Cari əməliyyatlar | 1684.5 |
| Xarici ticarət balansı | 6114.7 |
| Xidmətlər balansı | -3379.3 |
| İlkin gəlirlər balansı | -1759.5 |
| İnvestisiya gəlirlərinin repatriasiyası | -1333.4 |
| Təkrar gəlirlər balansı | 708.6 |
| | |
| Kapital hesabı | 100.4 |
| | |
| Maliyyə Hesabı | -201.4 |
| Xalis maliyyə aktivləri | 5419.4 |
| Xaricə yönəldilmiş birbaşa investisiyalar | 2564.4 |
| Portfel investisiyaları | -80.9 |
| Törəmə maliyyə alətləri | -3.8 |
| Digər investisiyalar | 2939.7 |
| Xalis maliyyə öhdəlikləri | 5218 |
| | |
| Azərbaycana cəlb olunmuş investisiyalar | 5713.8 |
| Cəlb olunmuş investisiyaların repatriasiyası | -2847.7 |
| Neft bonusu | 1.4 |
| Portfel investisiyaları | 2588 |
| Digər investisiyalar | -237.5 |
| | |
| Balanslaşdırıcı maddələr | 387.8 |
| Tədiyyə balansının ümumi saldosu | 1971.3 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, www.stat.gov.az mənbəyinə əsasən magistrant tərəfindən hazırlanmışdır.

# III fəsil. AZƏRBAYCANIN TƏDİYYƏ BALANSININ TƏNZİMLƏNMƏSİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ.

## 3.1 Tədiyyə Balansının Tənzimlənməsində Qeyri – Neft Sektorunun İxrac Potensialından İstifadə

Son zamanlarda iqtisadçıları düşündürən ən önəmli məsələlərdən biri neftdən gələn gəlirin qeyri-neft sektoruna düzgün yönəldilməsi və bu sektordakı defisiti azaldaraq, gələcək illərdə profisitə nail olmaqdır. Bildiyimiz kimi Azərbaycan neft ölkəsidir. Və tədiyyə balansında ən önəmli yeri də neft sektorundan gələn gəlir tutur ki, digər sektorlardakı mənfi saldo, neft sektoru hesabına bağlanır. Buna görə də, son illərdə ən çox işlədilən termin, iqtisadiyyatın diversifikasiyasıdır ki, bu baxımdan da, iqtisadçıların qarşılarına qoyduqları ən önəmli addım kimi qəbul olunur. Xüsusən neft qiymətlərində olan dəyişikliklər, son dövrlərdə stabilliyin olmaması, iqtisadiyyatımız qarşısında duran mühüm stratejik məsələ kimi, gələn gəlirin qeyri-neft sektoruna yönəldilməsi və bu sektorda da ixracın stimullaşdırılmasıdır. Yerli və xarici investisiyaların da bu sahədə payının artırılması tendensiyası da bizə bunu deməyə əsas verir. Belə ki, bu sahədə əldə olunacaq nailiyyətlər birbaşa olaraq ölkədə məşğulluğun artırılması, istehlak və valyuta bazarında stabilliyin davam etdirilməsinə şərait yaradır.

2014-cü ildən etibarən aparılan islahatları da nəzərə alsaq, hazırda qarşımızda dayanan məsələləri aşağıdakı kimi qruplaşdırmalı olduğumuzu düşünürəm:

1. Mütəxxəssislərin cəlb olunması və hazırda aparılan işlərin effektivliyinin artırılması və qeyri-neft sektorunun inkişaf konsepsiyasının hazırlanması.
2. Dövlət və özəl sektor arasındakı qarşılıqlı əlaqənin gücləndirilməsi yönündə işlərin artırılması, danışıqların, tədbirlərin çoxaldılması və konkret məsələlərin gündəmə gətirilməsi.
3. Xarici investisiyanın qeyri-neft sektoruna cəlb olunması. Rəqabətqabiliyyətliliyin fərqli sahələrdə əldə olunması və qeyri-neft sektorunun ixrac qabiliyyətinin gücləndirilməsi.
4. Şəffaf sahibkarlıq mühitinin yaradılması, anti-inhisarçılıq tədbirlərinin gücləndirilməsi. Yerli və Xarici investorların güvəninin qazanılması.

5. İnstitusional islahatların sürətlənməsi, passiv idarərtmə sistemindən çevik idarəetmə sisteminə keçidin surətlənməsi. Struktur islahatlarının davam etdirilməsi və bu sahədə görülən işlərin artırılması.

Tədiyyə balansının tənzimlənməsi zamanı neftdən gələn gəlirin səmərəli şəkildə istifadəsi, o cümlədən iqtisadiyyatın inkişafınıı surətləndirən digər sahələrdə də diqqətin daima gündəmdə qalması və gələcəyə baxışın artırılaraq, 10 illik, 30 illik planların qurulması qaçınılmazdır.

1. İnsan kapitalına qoyulan investisiyalar. İllərdir ən çox gündəmdə olan məsələlərdən biri olmasına baxmayaraq, hazırda da ən böyük problemlərdən biri olan ixtisaslı kadr çatışmazlığı dövlət və özəl sektorun qarşısında dayanan əsas problemlərdən biridir. Bu istiqamətdə aparılan islahatlar zamanı ölkənin hazırdakı makroiqtisadi durumunun qiymətləndirilərək prioritet sahələrin qeydə alınması və kapital qoyuluşunun bu istiqamətlərə cəlb olunması önəmi hazırda da artmaqdadır.
2. Kənd təsərrufatına qoyulan investisiyalar. Ölkə başçımızın çıxışlarını da əsas gətirərək, bu sahəyə qoyulan investisiyalardan texnoloji olaraq istənilən geridönüşlər alınmamaqdadır. Bunun üçün də, texnoloji yeniliklərin dünya standartlarına yaxınlaşması - məhsuldarlığın artırılması və bu məhsulların rəqabətqabilliyyətinin artırılması məsələsində ən prioritet addım sayılmaqdadır. Bu istiqamətdə texnoloji cəhətdən konkret ölçüləbilən hədəflərin əlaqədar qurumların qarşısına qoyulması – bu sahədə istənilən nəticənin alınmasını şərtləndirən məsələlərdən biridir.

- Texnoloji yeniliklər
- Kadr çatışmazlığının həll olunması
- Məhsuldarlığın artırılması istiqamətində addımlar
- Yerli təsərrufat sahiblərinin həvəsləndirilməsi addımları
- İxracın stimullaşdırılması

3. Azad iqtisadi zonaların yaradılmasının surətləndirilməsi. Bu sahədə görülən işlər hazırda da davam edir. Sənaye parklarının yaradılması artıq öz müsbət təsirlərini və geridönüşlərini etməkdədir. Bu sahədə görülən işlərin artırılması

və yatırılan investisiyaların artırılması növbəti 10 il ərzində qarşımızda dayanan ən vacib məsələlərdən biridir.

- Sənaye parklarının yaradılması
- Şəffaf mühitin yaradılması
- Xüsusi güzəşt və imtiyazların beynəlxalq səviyyədə tədbiqi

4. Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizində mövqeyini gücləndirən investisiyalar.

Xüsusən son illərdə aparılan danışıqlar nəticəsində “One belt, One road” dəhlizində ölkəmizin yer alması Çin investorlarının da marağını ölkəmizə cəlb etməyə imkan yarada bilər. Şərqi Asiya ölkələri ilə, xüsusilə Yaponiya və Çinlə əlaqələrimizdə önəmli paya sahib olan bu nəqliyyat dəhlizində mövqeyimizin gücləndirilməsi, ölkəmizə kapital qoyuluşunu artıran istiqamətlərdən biri olacaq.

5. Texnologiyanın istehsalına yatırılan investisiyalar. Yeni texnologiyaların istehsalına başlanılması, dünya trendlərinin izlənilməsi və ölkəmizin bu yeniliklərlə ayaqlaşması da önəmli addım kimi qeydə alınmalıdır. Texnologiya hazırda bütün dünya ölkələrinin davamlı olaraq üzərində işlədiyi sahədir və bunun üçün də ilk öncə dünyanın aparıcı təhsil olacaqlarının təsrübəsindən faydalanmaq, ixtisaslı mütəxxəssislərin cəlb olunması və bu sahədə mövcud ola biləcək kadr potensialının sistemli şəkildə artırılması istiqamətində dövlətimiz tərəfindən qoyulan investisiyaların artırılması mühüm stratejik addımlardan biri sayılır.

- İkt sahəsində kadrların yetişdirilməsi
- Texnoloji yeniliklərin iqtisadiyyatın bütün sahələrində kompleks tətbiqinə təşviq olunması
- Biotexnologiya sektorunun inkişafının dəstəklənməsi

6. Turizm sektoruna qoyulan investisiyalar. Azərbaycanda turizm sektorunu dəstəkləyən, ölkəmizi xarici arenada tanıdan beynəlxalq tədbirlərin davamlılığının qorunması, diplomatik nümayəndəliklər və özəl şirkətlər vasitəsilə xarici ölkələrdən turist axınına təşviqin surətləndirilməsinə dəstək olmaq. Və bu

istiqamətdə işlərin surətlənməsi hazırda zəruri xarakter daşıyır. Və bu sektorun sistemli inkişafı nəticəsində istədiyimiz nəticələri əldə edə biləcəyik.

## 3.2 Tədiyyə Balansının Tənzimlənməsində Dövlətin Özəl Sektorla Qarşılıqlı Əlaqəsinin Rolu. İnformasiya Öhdəliyi.

Xarici investorların qeyri-neft sektoruna cəlb olunması ölkəmizin IV regionların sosial iqtisadi inkişaf proqramında əsas diqqət olunan məqamlardan biri oldu. Bu istiqamətdə işlərin aparılması, xarici investorların Azərbaycanda yaradılan investisiya mühiti haqqında daimi olaraq bilgiləndirilib, investorların bu sahələrə cəlb olunması prosesi də, məsul qurumların önündə dayanan əsas istiqamətlərdən biri kimi qarşıya qoyuldu. Bu istiqamətdə toxunmaq istədiyim önəmli addımlardan biri də, yuxarıda da qeyd etdiyimiz istiqamətlərdən biri olan İnformasiyanın tam və operativ təmin olunması, əlçatanlığının təmin olunmasıdır. (https://www.theguardian.com/business/2016/jan/04/why-strong-ties-between-business-and-government-matter-r-and-d)

Ölkəmiz World Bank doingbusiness 2019 sıralamasında 25-ci pilləyə qədər yüksəlmişdir

**Cədvəl 3.1 2019-cu il Doing Business tərəfindən ölçülmüş üç və ya daha çox ərazidə ən yaxşı şəkildə inkişaf edən 10 iqtisadiyyat.**

| | | |
|---|---|---|
| Əfqanıstan | 167 | +10.64 |
| Cibuti | 99 | +8.87 |
| Çin | 46 | +8.64 |
| Azərbaycan | 25 | +7.10 |
| Hindistan | 77 | +6.63 |
| Togo | 137 | +6.32 |
| Kenya | 61 | +5.25 |
| Kot Duevar | 122 | +4.94 |
| Türkiyə | 43 | +4.34 |
| Ruanda | 29 | +4.15 |

**Mənbə:**http://www.doingbusiness.org/en/reports/global-reports/doing-business-2019 mənbəsinə əsasən magistrant tərəfindən hazırlanmışdır.

Qrafikdə son nəticələrə görə, 3-dən çox istiqamətdə inkişafa nail olan və əlverişli biznes mühitin yaradılması üçün ciddi islahatlar edən ölkə olaraq Azərbaycan 7.1 xal artım ilə dəyərləndirilərək, bu sahədə 25-ci pilləyə qalxmışdır. Bütün bunlar ölkəmizin önünə önəmli vəzifələr qoyaraq, ilk 10-luğa doğru

qalxaraq, islahatların davam etdirilməsini tələb edir. Doingbusiness 2019 hesabatına əsasən Azərbaycanda aşağıdakı irəliləyişlər qeydə alınmışdır:

Tikinti icazələri: Azərbaycan tikinti icazəsi prosesini asanlaşdırdı, çünki tikinti icazələri artıq Bakı Şəhər İcra Hakimiyyətinin bir pəncərəsi ilə əldə edilir.

Elektrik əldə edilməsi: Azərbaycan şəbəkə infrastrukturuna investisiya qoyaraq və elektrik kəsintilərini nəzarət etmək üçün bir milli tənzimləyici quraraq elektrik təchizatının etibarlılığını yaxşılaşdırdı. Bir pəncərə quraraq, Azərbaycan daha sürətli və daha az qiymətli elektrik enerjisi əldə edib.

Əmlakın qeydiyyatı: Azərbaycan ərazi idarəetmə sisteminin şəffaflığını artıraraq əmlak qeydiyyatını asanlaşdırır.

Kredit əldə etmək: Azərbaycan funksional təminatlı əməliyyatlar sistemini həyata keçirən yeni təmin edilmiş əməliyyatlar haqqında qanunu və dözümsevərlik qanununu tətbiq edərək kreditə çıxış imkanlarını gücləndirdi, girov kimi istifadə edilə bilən aktivlərin həcmini genişləndirdi. Azərbaycan həmçinin vahid, müasir və xəbərdarlıqlı girov reyestrini yaratdı və yeni kredit bürosunun yaradılması ilə kredit məlumatlarına çıxışı artırdı.

İnvestorlarının qorunması: Azərbaycan azlıqlı investorların qorunmasını gücləndirdi və səhmdarların hüquqlarını və əsas korporativ qərarlardakı rolu artıraraq, mülkiyyət və nəzarət strukturlarını aydınlaşdırdı və daha böyük korporativ şəffaflığı tələb etdi.

Vergilərin ödənilməsi: Azərbaycan elektron faturalandırmayı (e-faktura) və sosial təminat töhfələri üçün vahid vergi bəyannaməsini təqdim etməklə vergiləri asanlaşdırdı və korporativ gəlir vergisi verilməsi üçün onlayn platforma genişləndirdi.

Sərhədlər üzərində ticarət: Azərbaycan elektron gömrük prosedurlarının təkmilləşdirilməsi və "yaşıl dəhliz" qapı sistemini tam şəkildə həyata keçirməklə sərhədlər üzərində sürətli ticarət aparmışdır. Ödəmə qabiliyyəti: Azərbaycan imtiyazlı əməliyyatlardan qaçınmaqla vergi ödəmə qabiliyyətini asanlaşdırdı.

İşəgötürənlər: Azərbaycan artıq işdən azad olunma və işdən çıxma ödənişləri üçün xəbərdarlıq dövrünə aid qaydaları dəyişib.

2018-ci ildəki statistikalar nəticəsində deyə bilərik ki, ölkəmizin xarici ticarət dövriyyəsinin bu ildə 31.7 mlrd $ təşkil etmişdir. Neft-qaz sektoruna baxdığımızda qeyd edə bilərik ki, 17.4 mlrd$ profisit ölkənin qeyri-neft sektoru üzrə kəsiri bağlamışdır. Və nəticədə bu balansda 9.8 mlrd$ həcmində profisit qeydə alınmışdır. Və o güllədən də qeyd edə bilərik ki, bu ildə ölkəmizin dünya üzrə 185-ə qədər dövlətlə xarici ticarət əlaqələri olmuşdur. Və bu əlaqələrin 12 faizi MDB, 88 faiz isə digər dövlətlərlə olmuşdur.

Gördüyümüz kimi, xüsusən son ildə görülən işlərin həcmi artırılmış və Azərbaycan şəffaf, etibarlı və rahat investisiya mühitinin yaradılması üçün önəmli addımlar atmışdır. Bu istiqamətdə Həyata keçirilən tədbirlərin, son dövrlərdə yaradılan yeni qurumların qarşısındakı önəmli məsələlərdən biri də məhz informasiyanın doğru şəkildə təminidir. Beynəlxalq bazarda bu imkanların surətli şəkildə çatdırılması məsələsi də, ən qısa zamanda qarşıya qoyulan addım olduğunu düşünürəm.

İnformasiyanın çatdırılması istiqamətində hazırda bəzi məsələlərin üzərində dayanıb, problemləri qeyd etməliyik.

- İqtisadiyyat sahəsində fəaliyyət göstərən əsas qurumların xüsusən xarici investorlar üçün bölüşdükləri məlumatların, statistikaların davamlı olaraq yenilənməməsi.

- İnvestisiyalar, ölkə iqtisadiyyatı haqqında ən son və ən ehtiyac olunan bilgiləri bölüşən hər hansı vahid, mərkəzləşdirilmiş subkektin olmaması. Bu məlumatların parçalanmış şəkildə fərqli dövlət qurumları tərəfindən təmin edilməsi.

- Doingbusiness, investment in Azerbaijan açar sözləri global axtarış sistemlərində axtarıldıqda hər hansı qurum və yaxud ölkəmiz haqqında ən son bilgilərin asan əldə oluna bilməməsi. Axtarış nəticələrinin effektiv olmaması.

- Son dövrdə həyata keçirilən islahatların, qanunlardakı yenilik və dəyişikliklərin, yaradılan qurumların ən yeni informasiyaları lazımi subyektlərə qısa zamanda ötürüb, bu əlaqəni gücləndirən mərkəzləşdirilmiş sistemin yaradılması.

Bu istiqamətdə işlərin aparılması və "informasiyanın gücü"ndən faydalanaraq, iqtisadiyyatımızın bir çox sahələrini, o cümlədən də qeyri neft sektorumuza qoyulan investisiyaları artıra bilərik.

- Azərbaycanda investisiya mühitini göstərən, investorlar üçün bələdçilik edən, onları istədikləri zaman yerli nümayəndələrə suallarını verə biləcəkləri, araşdırmalar edərək, yerli mühitdə xarici investorlar üçün yaradılan imtiyazlardan məlumatlana biləcəkləri vahid platformanın yaradılması. Xarici təcrübədə bu istiqamət dünyanın əksər ölkələri tərəfindən həyata keçirilir. Bu qurum bəzi ölkələrdə sərbəst agentlik kimi, bəzi dövlətlərdə isə dövlətin öz rəsmi qurumu kimi fəaliyyət göstərir. Əsas vəzifəsi isə, ölkə haqqında ən vacib məlumatları detallı şəkilə investorlar üçün təqdim edib, istənilən zaman əlaqə yarada biləcəkləri dəstəkçi rolunu oynamaqdır.

- Platformanın rəqəmsal alətlərdən istifadə olunaraq, internet üzərindən xarici bazarda reklam olunması. Və bütün media kanallarında təmsil olunması.

Yuxarıda qeyd etdiyim qardaş Türkiyə təcrübəsi və dünya təcrübəsinə nəzər salsaq, investisiya təşviqi qurumları bütün media kanallarında aktiv təmsil olunur və ən son rəqəmsal alətlərdən faydalanaraq, investorlar üçün əlçatanlığı təmin edirlər.

- Həyata keçirilən beynəlxalq tədbirlərdə #doingbusinessazerbaijan sloqanlarının və ya bu istiqamətdə fəaliyyət göstərən qurumun da reklam olunması.

- Geniş büdcələr ayrılan və ölkəmizdə həyata keçirilən beynəlxalq tədbirlərdə #doingbusinessAzerbaijan istiqamətində işlərin görülməsi vacib xarakter daşıyır. Çünki bu məsələ hazırda iqtisadiyyatımızın, xüsusən qeyri-neft sektorunun ixrac potensialının artırılması yolunda qarşımıza qoyulan əsas vəzifələrdən biridir və hər bir fürsəti dəyərləndirməmiz lazımdır.

- Ölkədə yeni yaradılan Kiçik və Orta biznesin İnkişafı Agentliyinin qısa müddətdə gördüyü işlər təqdirəlayiqdir. İnformasiyanın operativ təmini və sahibkarlara dəstək olan və onlar üçün xidmət göstərən bu qurum ölkənin bütün regionlarına yayılmağa başlayıb. Bu istiqamətdə qeyd etmək istədiyim əsas məqam G2B və B2B xidmətlərini mərkəzdə cəmləyən vahid məkanın

yaradılmasının surətlənməsi və ən qısa zamandan etibarən kiçik və orta sahibkarların işini asanlaşdırmaqdır. (http://smb.gov.az/nav/kob-evlri).

Aşağıda isə Türkiyə təcrübəsi ilə investisiya platforması ilə tanış olaq.

**Şəkil 3.1. İnvest in Turkey. Türkiyə Təcrübəsi**




**Mənbə:** http://www.invest.gov.tr

- Asan xidmətin tərkibində ayrıca olaraq Ölkədəki qurumların fəaliyyətini vətəndaşlarla bölüşən "Asan məlumat" mərkəzinin yaradılması. Bu qurum sırf sahibkarlıq subyektləri üçün ayrı bir qurum kimi də yaradıla bilər. İstər biznes mühiti, reklam fəaliyyəti, qanunlar və digər istənilən lazımi informasiya üçün naviqator rolunu oynayan mərkəzin yaradılması əhəmiyyətli xarakter daşıyır deyə düşünürəm. Bu istiqamət 4-cü bənddə qeyd olunan vahid mərkəzləşdirilmiş sistemin tərkib hissəsi kimi də çıxış edə bilər.

## 3.3 Azərbaycan Respublikasının Qəbul Etdiyi İqtisadi İnkişaf Proqramlarının Tədiyyə Balansının Tənzimlənməsində Rolu

Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi tədiyyə balansı ölkənin makroiqtisadi mühitini ifadə edən, ölkənin iqtisadi vəziyyəti barədə məlumatları özündə birləşdirən, digər ölkələrlə münasibətləri özündə əks etdirən məlumatlar

toplusudur. Tədiyyə balansının müsbət saldo ilə nəticələnməsi, mənfi saldoya sahib olan istiqamətlərin getdikcə defisitinin aradan qaldırılması və bu istiqamətdə makro səviyyədə görülən işlər çox mühüm stratejik əhəmiyyətə sahibdir. Bu istiqamətdə aparılan ən böyük işlərdən biri 2014-2018-ci il regionların sosial iqtisadi inkişaf proqramıdır. Ümumilikdə 2004-2018-ci illəri əhatə edən inkişaf proqramının nəticəsi olaraq, Azərbaycanda 100.000-dən çox müəssisə yaradılmış, Ümumi daxili məhsul 3.3 dəfə, qeyri-neft sektoru üzrə 2.8 dəfə, kənd təsərrüfatı üzrə 1.7 dəfə, sənaye üzrə 2.6 dəfə artmışdır. Regionların inkişafı istiqamətində aparılan işlər növbəti illərdə də qarşıya önəmli məqsədlər qoyur. Və 2019-cu ilin Yanvar ayında təstiqlənən Regionların İqtisadi İnkişafının IV proqramı çərçivəsində, Ölkə Prezidenti İlham Əliyevin fərmanı ilə növbəti 4 il ərzində qarşıya qoyulan ümumi məsələlərə baxsaq, qeyri-neft sektorunun inkişafı ən mühüm strateji addım olaraq qəbul olunduğunu görə bilərik.

- Yeni elektrik stansiyalarının tikintisine ehtiyac hələ də davam etməkdədir. Enerji ixracı etməmizə baxmayaraq, planlaşdırılan tədbirlər buna əsas verir ki, bu istiqamətdə aparılan işlər genişləndirilərək, yeni stansiyaların tikintisi ilə ölkəmizin enerji potensialının artırılmasına nail ola biləcəyik. Və bunların vasitəsilə biz həm daxili tələbatı ödəyə biləcəyik, o cümlədən də ixrac potensialımızı artıraraq, ölkəmizə yeni valyuta gətirilməsinə nail ola biləcəyik.
- İnvestisiya təşviqi mexanizmi istiqamətində 107 layihə başa çatıb və bu proqram çərçivəsində 332 layihə isə nəzərdə tutulub və bu layihələrin həyata keçirilməsinə qoyulacaq sərmayə 2.8 mlrd-dır. Və bu da birbaşa olaraq sənaye parklarının inkişaf etdirilməsinə və tədiyyə balansında qeyri-neft sektorunun inkişafını nəzərdə tutan tədbirlərdir. Ümumilikdə IV proqram çərçivəsində İnvestisiya təşviqi mexanizminin önəm yer alması növbəti 4 il ərzində qeyri-neft sektorunun payını daha da artırmasına yönələn addımlardır. Və bu istiqamətdə də dövlət və özəl sektorun qarşılıqlı əlaqəsi qaçınılmazdır.

2018-ci ildə bu istiqamətdə Sumqayıt texnolgiyalar parkı, Sumqayıt kimya parkı, Mingəçevir yüngül sənaye parkı və digər şəhərlərdə yaradılacaq sənaye

parklarının da önəmli payı ilə qeyri-neft sektoru 9.1% artım müşahidə olunmuşdur. Növbəti illərdə də yeni investisiyalar ilə aran bölgələrində yaradılacaq sənaye parkları ilə qeyri-neft sektorunun ixracda tutduğu yerdə artımlar müşahidə edə biləcəyik.

Təkcə 2019-cu ilin Mart-Aprel ayına nəzər saldıqda, Sumqayıt texnologiyalar parkının nailiyyətlərini də əlavə edə bilərik.

- Qazaxıstana iri kabel ixracı. (7000 mln$ dəyərində) Qeyd edək ki, Azərbaycan bu tenderdə Almaniya, Çin və Türkiyə kimi ölkələri üstələyərək buna nail olub.
- Socar Polimer zavodunu 5000 ton metal konstruksiya, qaynar sinkləmə, sendviç panel və müxtəlif növ kabel və məhsullarla təzcih edib.
- BP-in öz podratçı şirkətlərinə Sumqayıt Texnologiyalar parkı ilə əməkdaşlıq etməyi tövsiyə edib. “Schlumberger”, “Halliburton”, “Tekfen”, “Steadfast Engineering, “Saipem”, “R&M” “Siemens”, “Rapid Solutions” kimi böyük qurumların nümayəndələri Sumqayıt texnologiyalar parkını ziyarət ediblər.

STP-in “Brand Promotion” şöbəsinin rəhbəri Nihad Mustafazadə ilə danışığımızın nəticəsi olaraq qeyd edə bilərəm ki, bu ilin ikinci yarısına qədər də böyük layihələr davam edəcək. Həm yerli bazarda, həm də xarici bazarda nailiyyətlərin əsasında isə Avropa və Yaponiya istehsalı olan ən yeni texnologiyaların təzcih olunmasının böyük rolu var. Hazırda Texnologiyalar Parkında 2000-dən çox şəxs çalışır. Gördüyümüz kimi, son texnologiyaların tətbiqi ilə, həm yerli, həm xarici bazar üçün qeyri-neft sektorunun stimullaşdırılması istiqamətində böyük işlərin görülməsi üçün zəmin var və növbəti illərdə də bu artım tendensiyasını müşahidə etməmiz üçün, mövcud islahatların daha da geniş vüsət alması gərəklidir.

Ümumilikdə 2004-cü ildən indiyə qədər əldə edilən nəticələrə baxsaq, bəzi sahələrdəki artımın çox yüksək, bəzilərində isə çox aşağı artımın əldə edildiyini görə biləcəyik.

Kənd təsərrüfatına nəzər salsaq, Taxılçılıqda 2004-cü ildə 2 mln ton, 2018-ci il rəqəmlərinə baxsaq, 3.2 mln ton müşahidə edə bilərik. Bu da dövlətin bu

istiqamətdə apardığı inkişaf proqramları çərçivəsində öz əksini tapmışdır. Texnologiyanın bu sahələrə tətbiqi nəticəsində, təstiqlənən yeni iqtisadi və sosial inkişaf proqramında bir neçə dəfə artım müşahidə edə bilərik. Bunun üçün də iri fermer təsərrüfatlarında məhsuldarlığın artırılması da qarşıya qoyulan önəmli məsələlərdən biridir. Texnoloji üsullardan doğru faydalanaraq, məhsuldarlığın artırılması istiqamətində işlərin aparılması nəticəsində yuxarıda qeyd olunan nəticəni biz daha qısa müddətdə əldə edə bilərik.

Heyvandarlıqda 2004-cü ildə 196 min ton ət, ötən il isə 326 min ton ət tədarük edilmişdir. Süni mayalanma mərkəzlərinin istifadəyə verilməsi nəticəsində də bu sahədə 15-20%-ə qədər artımın əldə olunmasına çalışmaq lazımdır.

Süd istehsalı 2004-cü ildə 1.2 mln ton, 2018-ci ildə 2 mln ton olduğunu görə bilərik. Lakin biz hələ də bu sahədə yerli tələbatı ödəyə bilmirik. Bunun üçün də bu sahədə məhsuldarlığın artırılması nəticəsində idxalı azaltmaqla, tədiyyə balansında kənd təsərrüfatının mənfi saldosunu da azaltmış olacağıq. Quş əti 2004-cü ildə 44 min ton, 2018-ci ildə 109 min ton olmuşdur. Tərəvəz 2004-cü ildə 1 mln ton, 2018-ci ildə 1.5 mln ton istehsal olunmuşdur. Ən çox valyuta gətirən kənd təsərrufatı məhsullar isə pomidor 177mln$, Xurma 114 mln$, pambıq və un məlumatları 108 mln$, alma 38 mln$ olmuşdur. Meyvə istehsalı 2004-cü ildə 420 min ton, 2018-ci ildə 1 mln ton olmuşdur.

2015-ci ildə 35.000 ton pambıq istehsalı və 2018-ci ildə 233.000 ton pambıq tədarük edilmişdir. Bununla belə orta məhsuldarlığın müşahidə olunduğu bu sahədə də innovastivliyin tətbiqi ilə məhsuldarlığın artırılmasına ehtiyac duyulur. Tütünçülük son 3 il ərzində 13 rayon olmaqla 6 milyon 300 ton tütün tədarük olunmuşdur ki, bu rəqəm 3 il öncə 3400 ton olmuşdur. Üzümçülük və şərabçılıq istiqamətində 2004-cü ildə 55000 ton üzüm, 2018-ci ildə isə 167000 ton üzüm yığılmışdır.

Bütün bu statistikaları nəticələndirsək, dövlətin birbaşa olaraq dəstəyini göstərdiyi sahələdə qısa dövr ərzində öz effektiv nəticələrin qeydə alınmışdır. Bütün bu tədbirlər devalvasiyadan sonrakı müddətdə intensivliyini artırmış və qeyri-neft sektorunun inkişafı yolunda öz müsbət nəticələrini verməyə başlamışdır.

Xüsusən kənd təsərrüfatında yerli tələbatın ödənilməsi üçün işlər surətlə davam etdirilməlidir. Bildiyimiz kimi ölkəmizin bu sahədə geniş potensialı vardır. Lakin biz əksər istiqamətlərdə dünya təcrübəsindən uzağıq və kənd təsərrüfatında müasir təcrübələrin tətbiqi nəticəsində məhsuldarlığı artıraraq, yerli bazarın inkişafına nail olmamız mümkündür. Yeni yaradılmış KOB-un da fəaliyyətini bu sahədə yüksək qiymətləndirirəm. Regionlara öz fəaliyyətini yararaq, kiçik və orta sahibkarlara öz dəstəyini verməyə davam edir. Maarifləndirmə istiqamətində işlər öz surətini artırmaqdadır. Bu gedişatı davam etdirdiyimiz halda tədiyyə balansının strukturunda qeyd olunan sahələr üzrə idxal azalmağa başlayacaq, Azərbaycan öz yerli tələbatını ödəyərək, növbəti illərdə öz ixrac potensialını da genişləndirməyə başlayacaqdır.

Və bütün bu işlərin də nəticəsində ölkəmiz öz ixrac potensialını genişləndirməyə davam edəcək və qeyri-neft sektorunun digər sahələri üzrə də öz potensialından istifadə edərək yüksək nəticələri əldə edə biləcək. Bütün bu addımlar da uzunmüddətli dövrdə ölkəmizin neft asılılığını azaltmağa başlayacaq və biz bunu illər üzrə tədiyyə balansı strukturunda da müşahidə edə biləcəyik. Qeyri-neft sektorunda olan kəsirin azalmağa başlaması, ixrac potensialının genişlənməsi, yerli tələbatın bir çox sahələrdə ödənilərək idxalın azaldılması, xarici investisiyaların ölkəmizə cəlb olunması mexanizmlərinin surətlənməsi nəticəsində də növbəti 4 ildə qeyri-neft sektorunda olan kəsirin ən az 2 dəfəyə qədər azalacağını proqnoz vermək olar. Neft qiymətlərindəki stabilliyin davam etməsi, qiymətlərin istənilən səviyyədə davam edərək, dünya bazarında qiymətlərin aşağı düşməməsi ölkəmiz üçün də əlavə güc verəcək.Və ölkəmizin son illərdəki çıxardığı dərslər və təcrübələr sayəsində bu sahədən əldə edilən gəlirlər effektiv şəkildə istifadə olunaraq, digər sahələrin də surətli inkişafına nail ola biləcəyik.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

I fəsildə də qeyd etdiyimiz kimi, Tədiyyə balansı ölkələrin xarici dünya ilə münasibətlərini əks etdirən ümumiləşdirilmiş göstəriciləri əks etdirir. Tarixə nəzər saldıqca, tədiyyə balansı orta əsrlərdə meydana gəlmişdir. O zamanlarda tədiyyə balansı ticarət balansı formasında tətbiq olunurdu. Termin kimi isə, ingilis iqtisadçısı Con Stüart-Mill tərəfindən elmə daxil olmuşdur. Həmin zamanlarda balans əsas etibarilə fiskal funksiya daşıyırdı. Müasir formada isə görə bilirik ki, tədiyyə balansı makroiqtisadi siyasət elmlərinin hazırlanması zamanı mühüm rolda çıxış edir.

Tədqiqat işində Azərbaycanda  devalivasiyanın mahiyyətinə 2015-ci ildən ildən varılmağa başlanılmasını bildirmişdim. Dünyada baş verən 2014-cü ilin sonu və 2015-ci ilin əvvələrində baş verən proseslər neft qiymətlərində kəskin azalmanı şərtləndirmişdi.

Azərbaycanda isə 20 il ərzində neftdən əldə olunan gəlirlərin hesabına davamlı olaraq iqtisadi artıma nail olunurdu. Ölkənin valyutasında sabitlik qorunur, inflyasiya istənilən dərəcədə qorunurdu və dövlət gəlirləri surətlə artmaqda davam edirdi.

Dünya bazarında neft qiymətlərində baş verən kəskin enmə nəticəsində Azərbaycanın döblət büdcəsində böyük kəmiyyətdə ziyan dəyməyə başladı. Gəlirlər azalmağa doğru getməyə başladı. Məsələn dövlətimiz satdığı hər 1 barel neftdən əldə etdiyi gəliri 0.78 Azn hər 1 dollara görə valyutaya əlavə edirdi. Əvvəllər 100+$ olaraq hesablanan neft bareli məsələn 55 dollar hesablanmağa başlanıldıqda, 30+ Azn neftdən gələn gəlir azalmağa başlanıldı.

Beləliklə neftdən gələn gəlirlərin azalması hesabına, birbaşa olaraq dövlət büdcəsinə zərbə dəyməyə başladı və büdcə kəsrimiz çoxalmağa başladı. Və bunu da qeyd edək ki, Azərbaycan Respublikası Mərkəzi bankı və Neft Fondu ehtiyatlarından strateji layihələrin icrasında istifadə olunmalıdır və maksimum bu effektivlik saxlanılmalıdır. Buradan büdcəyə olan transferlərin həcmi az olmalıdır. Bütün bunları nəzərə aldıqda dövlətimiz devalivasiya qərarı vermək

məcburiyyətinə qaldı. Devalivasiya qərarlarından əsas səbəblərindən biri də məhz budur. Yəni devalivasiya bu köçürmələri kompensasiya etmiş olur.

2014-cü ildən etibarən aparılan islahatları da nəzərə alsaq, hazırda qarşımızda dayanan məsələləri aşağıdakı kimi qruplaşdırmalı olduğumuzu düşünürəm:

1. Mütəxxəssislərin cəlb olunması və hazırda aparılan işlərin effektivliyinin artırılması və qeyri-neft sektorunun inkişaf konsepsiyasının hazırlanması.
2. Dövlət və özəl sektor arasındakı qarşılıqlı əlaqənin gücləndirilməsi yönündə işlərin artırılması, danışıqların, tədbirlərin çoxaldılması və konkret məsələlərin gündəmə gətirilməsi.
3. Xarici investisiyanın qeyri-neft sektoruna cəlb olunması. Rəqabətqabiliyyətliliyin fərqli sahələrdə əldə olunması və qeyri-neft sektorunun ixrac qabiliyyətinin gücləndirilməsi.
4. Şəffaf sahibkarlıq mühitinin yaradılması, anti-inhisarçılıq tədbirlərinin gücləndirilməsi. Yerli və Xarici investorların güvəninin qazanılması.
5. İnstitusional islahatların sürətlənməsi, passiv idarərtmə sistemindən çevik idarəetmə sisteminə keçidin surətlənməsi. Struktur islahatlarının davam etdirilməsi və bu sahədə görülən işlərin artırılması.

Tədiyyə balansının tənzimlənməsi zamanı neftdən gələn gəlirin səmərəli şəkildə istifadəsi, o cümlədən iqtisadiyyatın inkişafınıı surətləndirən digər sahələrdə də diqqətin daima gündəmdə qalması və gələcəyə baxışın artırılaraq, 10 illik, 30 illik planların qurulması qaçınılmazdır.

İnsan kapitalına qoyulan investisiyalar:

İllərdir ən çox gündəmdə olan məsələlərdən biri olmasına baxmayaraq, hazırda da ən böyük problemlərdən biri olan ixtisaslı kadr çatışmazlığı dövlət və özəl sektorun qarşısında dayanan əsas problemlərdən biridir. Bu istiqamətdə aparılan islahatlar zamanı ölkənin hazırdakı makroiqtisadi durumunun qiymətləndirilərək prioritet sahələrin qeydə alınması və kapital qoyuluşunun bu istiqamətlərə cəlb olunması önəmi hazırda da artmaqdadır.

Kənd təsərrufatına qoyulan investisiyalar:

Ölkə başçımızın çıxışlarını da əsas gətirərək, bu sahəyə qoyulan investisiyalardan texnoloji olaraq istənilən geridönüşlər alınmamaqdadır. Bunun üçün də, texnoloji yeniliklərin dünya standartlarına yaxınlaşması - məhsuldarlığın artırılması və bu məhsulların rəqabətqabilliyyətinin artırılması məsələsində ən prioritet addım sayılmaqdadır. Bu istiqamətdə texnoloji cəhətdən konkret ölçüləbilən hədəflərin əlaqədar qurumların qarşısına qoyulması – bu sahədə istənilən nəticənin alınmasını şərtləndirən məsələlərdən biridir.

- Texnoloji yeniliklər
- Kadr çatışmazlığının həll olunması
- Məhsuldarlığın artırılması istiqamətində addımlar
- Yerli təsərrufat sahiblərinin həvəsləndirilməsi addımları
- İxracın stimullaşdırılması

Azad iqtisadi zonaların yaradılmasının surətləndirilməsi:

Bu sahədə görülən işlər hazırda da davam edir. Sənaye parklarının yaradılması artıq öz müsbət təsirlərini və geridönüşlərini etməkdədir. Bu sahədə görülən işlərin artırılması və yatırılan investisiyaların artırılması növbəti 10 il ərzində qarşımızda dayanan ən vacib məsələlərdən biridir.

- Sənaye parklarının yaradılması
- Şəffaf mühitin yaradılması
- Xüsusi güzəşt və imtiyazların beynəlxalq səviyyədə tədbiqi

Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizində mövqeyini gücləndirən investisiyalar:

Xüsusən son illərdə aparılan danışıqlar nəticəsində “One belt, One road” dəhlizində ölkəmizin yer alması Çin investorlarının da marağını ölkəmizə cəlb etməyə imkan yarada bilər. Şərqi Asiya ölkələri ilə, xüsusilə Yaponiya və Çinlə əlaqələrimizdə önəmli paya sahib olan bu nəqliyyat dəhlizində mövqeyimizin gücləndirilməsi, ölkəmizə kapital qoyuluşunu artıran istiqamətlərdən biri olacaq.

Texnologiyanın istehsalına yatırılan investisiyalar:

Yeni texnologiyaların istehsalına başlanılması, dünya trendlərinin izlənilməsi və ölkəmizin bu yeniliklərlə ayaqlaşması da önəmli addım kimi qeydə alınmalıdır.

Texnologiya hazırda bütün dünya ölkələrinin davamlı olaraq üzərində işlədiyi sahədir və bunun üçün də ilk öncə dünyanın aparıcı təhsil olacaqlarının təsrübəsindən faydalanmaq, ixtisaslı mütəxxəssislərin cəlb olunması və bu sahədə kadr potensialının artırılması istiqamətində qoyulan investisiyaların artırılması mühüm stratejik addımlardan biri sayılır.

- İkt sahəsində kadrların yetişdirilməsi
- Texnoloji yeniliklərin iqtisadiyyatın bütün sahələrində kompleks tətbiqinə təşviq olunması
- Biotexnologiya sektorunun inkişafının dəstəklənməsi

Turizm sektoruna qoyulan investisiyalar:

Azərbaycanda turizm sektorunu dəstəkləyən, ölkəmizi xarici arenada tanıdan beynəlxalq tədbirlərin davamlılığının qorunması, diplomatik nümayəndəliklər və özəl şirkətlər vasitəsilə xarici ölkələrdən turist axınına təşviqin surətləndirilməsinə dəstək olmaq.

Növbəti önəmli məsələ isə Azərbaycanda dövlət və özəl sektor arasında informasiya mübadiləsinin gücləndirilməsidir.

Bu istiqamətdə işlərin aparılması və "informasiyanın gücü"ndən faydalanaraq, iqtisadiyyatımızın bir çox sahələrini, o cümlədən də qeyri neft sektorumuza qoyulan investisiyaları artıra bilərik.

- Azərbaycanda investisiya mühitini göstərən, investorlar üçün bələdçilik edən, onları istədikləri zaman yerli nümayəndələrə suallarını verə biləcəkləri, araşdırmalar edərək, yerli mühitdə xarici investorlar üçün yaradılan imtiyazlardan məlumatlana biləcəkləri vahid platformanın yaradılması. Xarici təcrübədə bu istiqamət dünyanın əksər ölkələri tərəfindən həyata keçirilir. Bu qurum bəzi ölkələrdə sərbəst agentlik kimi, bəzi dövlətlərdə isə dövlətin öz rəsmi qurumu kimi fəaliyyət göstərir. Əsas vəzifəsi isə, ölkə haqqında ən vacib məlumatları detallı şəkilə investorlar üçün təqdim edib, istənilən zaman əlaqə yarada biləcəkləri dəstəkçi rolunu oynamaqdır.
- Platformanın rəqəmsal alətlərdən istifadə olunaraq, internet üzərindən xarici bazarda reklam olunması. Və bütün media kanallarında təmsil olunması.

- Həyata keçirilən beynəlxalq tədbirlərdə #doingbusinessazerbaijan sloqanlarının və ya bu istiqamətdə fəaliyyət göstərən qurumun da reklam olunması.

- Ölkədə yeni yaradılan Kiçik və Orta biznesin İnkişafı Agentliyinin qısa müddətdə gördüyü işlər təqdirəlayiqdir. Bu istiqamətdə qeyd etmək istədiyim əsas məqam G2B və B2B xidmətlərini mərkəzdə cəmləyən vahid məkanın yaradılmasının surətlənməsi və ən qısa zamandan etibarən kiçik və orta sahibkarların işini asanlaşdırmaqdır.

- Asan xidmətin tərkibində ayrıca olaraq Ölkədəki qurumların fəaliyyətini vətəndaşlarla bölüşən "Asan məlumat" mərkəzinin yaradılması da bu istiqamətdə aparılan əsas işlərdən biri olmalıdır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı

## Azərbaycan dilində


1. Azərbaycan Neft Fondu rəsmi səhifəsi www.oilfund.az
2. O.N.Aras, E.Süleymanov. (2010) Azərbaycan iqtisadiyyatı.
3. Azəbaycan Respublikasının Mərkəzi Bankı, 1994-2018-cü illər üzrə Azərbaycan Respublikasının Tədiyə Balansları
4. Şəkərəliyev Arif.Ş (2016) Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi, monoqrafiya, İqtisad Universiteti nəşriyyatı,
5. Axundov M.Ə, Axundov Ş.Ə.,. (2001) Bazar iqtisadiyyatının əsasları. 672 s.
6. A.Q.Ağayev, (2002), Dövlət borcu və onun idarə edilməsi. Bакı, 231 səh
7. Vəliyev D. Ə. (2007) Azərbaycanda tədiyyə balansının aktual problemləri.
8. R.T.Həsənov. (2008) Azərbaycan Respublikasının sosial iqtisadi inkişafının bazar modelinin konseptual əsasları
9. R.T.Həsənov. (2009) İqtisadi siyasət: metodologiya və praktika, İqtisad Universiteti nəşriyyatı.
10. Quliyev T.F. (2004) Milli və dövlət gəlirləri. 329 s.
11. M.M.Sadıqov (2002) "Azərbaycan Respublikasının maliyyə potensialının formalaşması problemləri"
12. İ. Kərimli. (2007) Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri.
13. Əsədov H.X., Talıbov (2005) S.T.Dövlət xərclərinin idarə edilməsi və xəzinədarlığın təşкili problemləri. 433s.
14. Novruzov N.A., Əliyev R.M., Məmmədov M.A. (2010) Investisiyanın maliyyələşdirilməsi və кreditləşdirilməsi. 433 s.
15. Əlirzayev Ə.Q. (2000) Iqtisadiyyat: düşüncələr, baxışlar. 465 s.
16. E.M.Hacızadə, (2012) Azərbaycan iqtisadiyyatının dünyadakı reytinqi, Bakı, Elm nəşriyyatı.

17. Məhərrəmov R.B., Bədəlov Ş.Ş., Qurbanov F.Ə. (2004) Büdcə sistemi.

18. ARDNF, Maliyyə Nazirliyi; “Ekonomist” jurnalının analitika şöbəsi.

19. Prof., i.e.d. Zahid Fərrux Məmmədov, (2012) “Beynəlxalq valyuta kredit münasibətləri və xarici ölkələrin pul kredit sistemi” kitabı.

20. “Beynəlxalq valyuta kredit münasibətləri. (2012), V nəşr. Prof., i.e.d. Zahid Fərrux Məmmədov

**İnternet resursları**

1. http://www.doingbusiness.org/en/reports/global-reports/doing-business-2019

2. http://projects.worldbank.org/search?lang=en&searchTerm=&countrycode_exact=AZ

3. https://www.investslovenia.org/business-environment/

4. http://smb.gov.az/nav/kob-evlri

5. https://www.cbar.az/page-43/external-sector-statistics

6. https://www.theguardian.com/business/2016/jan/04/why-strong-ties-between-business-and-government-matter-r-and-d (2016)

7. https://www.weforum.org/press/2019/

8. https://www.investopedia.com

9. https://www.economicshelp.org

10. http://www.microeconomicsnotes.com

# ƏLAVƏ 1

**Cədvəl 2.2: Tədiyyə balansında aktivlər və öhdəliklər 2018**

| | | |
|---|---|---|
| **Birbaşa investisiyalar** | **1760.9** | **952.9** |
| **Neft-qaz sektoru** | **633.5** | **288.6** |
| **Digər sektorlar** | **1127.4** | **664.3** |
| **Neft bonusu** | | **450.1** |
| **Portfel investisiyalar** | **818.7** | **-422.3** |
| **Törəmə maliyyə alətləri** | **-3.6** | **-4.5** |
| **Digər investisiyalar** | **2210.1** | **619.1** |
| **Ticarət kreditləri və avanslar** | **2927.5** | **789.4** |
| **Kreditlər və ssudalar** | **145.9** | **-63.2** |
| **Depozitlər və nağd valyuta** | **-863.3** | **-63.2** |
| | | |
| **Cəmi** | **4786.1** | **1595.3** |

**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı (cbar.az) mənbəyinə əsasən magistrant tərəfindən hazırlanmışdır.

# ƏLAVƏ 2

**Cədvəl 2.3.Azərbaycan Respublikasının Tədiyyə balansı 2018**

| Göstəricilər | Kredit (daxilolmalar) | Debet (ödənişlər) | Fərq |
|---|---|---|---|
| Cari Əməliyyatlar hesabı | 28 283 511 | 22 232 434 | 6 051 077 |
| Neft-qaz sektoru | 19 839 505 | 6 970 429 | 12 869 076 |
| Digər sektorlar | 8 444 006 | 15 262 005 | -6 817 999 |
| Xarici ticarət balansı | 20 793 769 | 10 952 441 | 9 841 328 |
| Neft-qaz sektoru | 19 176 026 | 1 745 377 | 17 430 649 |
| Digər sektorlar | 1 617 743 | 9 207 064 | -7 589 321 |
| Malların ixracı | 20 793 769 | | 20 796 769 |
| Neft-qaz sektoru | 19 176 026 | | 19 176 026 |
| Digər sektorlar | 1 617 743 | | 1 617 743 |
| Malların idxalı | | 10 952 441 | -10952 441 |
| Neft qaz sektoru | | 1 745 377 | -1 745 377 |
| Digər sektorlar | | 9 207 064 | -9 207 064 |
| Xidmətlər balansı | 4 690 703 | 6 752 757 | -2 062 054 |
| Neft-qaz sektoru | 195 352 | 1 907 373 | -1 712 021 |
| Digər sektorlar | 4 495 351 | 4 845 384 | -350 033 |
| Nəqliyyat xidmətləri | 1 223 822 | 1 520 870 | -297 048 |
| Neft-qaz sektoru | 195 352 | | 195 352 |
| Digər sektorlar | 1 028 470 | 1 520 870 | -492 400 |
| Turizm xidmətləri | 2 634 163 | 2 284 361 | 349 802 |
| Rabitə xidmətləri | 78 995 | 99 483 | -20 488 |
| Tikinti xidmətləri | 54 307 | 1 331 496 | -1 277 189 |
| Neft-qaz sektoru | | 1 306 373 | -1 306 373 |
| Digər sektorlar | 54 307 | 25 123 | 29 184 |
| Maliyyə xidmətləri | 12 521 | 42 198 | -29 677 |
| Hökumət xidmətləri | 29 573 | 73 913 | -44 340 |

| | | | |
|---|---|---|---|
| Digər işgüzar xidmətlər | 657 322 | 1 400 436 | -743 114 |
| Neft-qaz sektoru | | 601 000 | -601 000 |
| Digər sektorlar | 657 322 | 799 436 | -142 114 |
| İLKİN GƏLİRLƏR | 1 630 836 | 4 090 401 | -2 459 565 |
| Neft-qaz sektoru | 468 127 | 3 317 679 | -2 849 552 |
| Digər sektorlar | 1 162 709 | 772 722 | 389 987 |
| TƏKRAR GƏLİRLƏR | 1 168 203 | 436 835 | 731 368 |
| B. KAPİTAL HESABI | 2 741 | 1 317 | 1 424 |
| C. MALİYYƏ HESABI | 4 786 050 | 1 595 272 | |
| NEFT-QAZ SEKTORU | 1 182 072 | 1 287 342 | |
| Digər sektorlar | 3 603 978 | 307 930 | |
| BİRBAŞA İNVESTİSİYALAR | 1 760 877 | 952 891 | |
| Neft-qaz sektoru | 633 510 | 288 605 | |
| Digər sektorlar | 1 127 367 | 664 286 | |
| NEFT BONUSU | | 450 107 | |
| PORTFEL İNVESTİSİYALARI | 818 717 | -422 264 | |
| Neft-qaz sektoru | 11 356 | -249 598 | |
| PORTFEL İNVESTİSİYALARI | 818 717 | -422 264 | |
| Neft-qaz sektoru | 11 356 | -249 598 | |
| Digər sektorlar | 807 361 | -172 666 | |
| TÖRƏMƏ MALİYYƏ ALƏTLƏRİ | -3 629 | -4 511 | |

| | | | |
|---|---|---|---|
| Digər sektorlar | -3 629 | -4 511 | |
| DİGƏR İNVESTİSİYALAR | 2 210 085 | 619 049 | |
| Neft-qaz sektoru | 537 206 | 798 228 | |
| Digər sektorlar | 1 672 879 | -179 179 | |
| Aktivlər | 2 210 085 | | |
| Öhdəliklər | | 619 049 | |
| C.EHTİYAT AKTİVLƏRİ | 3 508 120 | | |
| D.BALANSLAŞDIRICI MADDƏLƏR | 646 397 | | 646 397 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika komitəsi mənbəsinə əsasən magistrant tərəfindən hazırlanmışdır.

## CƏDVƏLLƏRİN SİYAHISI

Cədvəl 1: Azərbaycanın tədiyyə balansının strukturu və onun təhlili......................24
Cədvəl 2: Tədiyyə balansında aktivlər və öhdəliklər 2018.......................................29
Cədvəl 3: Tədiyyə balansına dair nümunə.................................................................32
Cədvəl 4: 2016-cı il Azərbaycanın tədiyyə balansı.....................................................33
Cədvəl 5: Azərbaycanın tədiyyə balansı 2017...........................................................37
Cədvəl 6: 2019-cu il Doing Business tərəfindən ölçülmüş üç və ya daha çox ərazidə ən yaxşı şəkildə inkişaf edən 10 iqtisadiyyat.............................................................41

## ŞƏKİLLƏRİN SİYAHISI

Şəkil 2: İnvest in Turkey. Türkiyə Təcrübəsi...........................................................45

## QRAFİKLƏRİN SİYAHISI

Qrafik1: 2017 və 2018 tədiyyə balanslarının müqayisəsi.......................................26

Qrafik2: 2016 və 2017 tədiyyə balanslarının müqayisəsi.......................................36